# Xalq qəzeti

Xalqın qəzeti!

№ 170 (30574) 11 avqust 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan Mərkəzi Asiyanın Qərbə açılan qapısıdır



Səhifə ⇨ 3

## Qərb İrəvanı "3+3" formatında iştirakdan yayındırır

**Cənubi Qafqaz regionu ilə bağlı məsələlərin bölgə ölkələrinin özləri tərəfindən "3+3" formatında həll edilməsinin zəruri olduğu növbəti dəfə təsdiqləndi. Avqustun 6-da Bakıda işgüzar səfərdə olan Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun səfərdən sonra media nümayəndələrinə verdiyi açıqlama belə deməyə əsas verir.**




Rusiyanın dövlət informasiya agentliyi – TASS-ın yaydığı xəbərə görə, S.Şoyqu qeyd edib ki, Bakıdakı görüşlər zamanı nəqliyyat layihələri, xüsusilə Şimal-Cənub dəhlizi ilə bağlı məsələlər müzakirə olunub: "Əlbəttə ki, toxunduğumuz mövzulardan biri də Azərbaycan Prezidenti İlham Əliyevin "3+3" formatında danışıqlar ideyası idi. Biz bu ideyanı dəstəkləyirik və onu müzakirə etdik. Əlbəttə, bu işi davam etdirmək lazımdır. Xüsusən də ona görə ki, "3+3 formulu təkcə bir konkret hal üçün nəzərdə tutulmayıb, həm də gələcəkdə burada, bütövlükdə, Cənubi Qafqazda vəziyyəti sabitləşdirmək üçün münasibdir".

*(ardı 3-cü səhifədə)*

## Seçmək vətəndaşın özəl hüququdur



Səhifə ⇨ 5

## Ermənistanın KTMT-dən çıxması müşküldür



Səhifə ⇨ 4

## Həştərxanda "Xəzər mövsümləri"



Səhifə ⇨ 10

## Parisdə yenə bayraq qalmaqalı

Səhifə ⇨ 12

# "Dünyanın kəsişməsi" Zəngəzur dəhlizinə qarşı

### *Qərb Ermənistanı mövqeyindən necə döndərmək istəyir?*





**Nəqliyyat kommunikasiyalarının açılmasının Azərbaycan–Ermənistan sülh danışıqları gündəmindən çıxması, istər-istəməz suallar yaradır. Əslində, ölkəmiz buna hazır idi. Hələ bir neçə il əvvəl rəsmilərimiz bildirmişdilər ki, əgər İrəvan nəqliyyat əlaqələrinin Bakının şərtləri ilə blokdan çıxmasını qəbul etmirsə, o zaman sülh müqaviləsi bu müddəasız imzalanacaq. Nəticədə Ermənistan otuz ilə yaxın müddətdə olduğu kimi, yenə təcrid durumunda qalacaq. Təcridin ayaq səsləri eşidilir və bundan narahatlıq keçirənlər var.**

Əlbəttə, hazırda durumun bir qədər fərqli olduğunu nəzərə almalıyıq. İndi söhbət Bakının və İrəvanın qarşılıqlı şəkildə sözügedən müddəadan imtinasından və məsələnin müzakirəsini gələcəyə daşımaq niyyətindən gedir. Yəni, bu, o deməkdir ki, tərəflər nəqliyyat kommunikasiyalarının açılması məsələsini geosiyasi rəqabətin cəngindən qurtarırlar. İlk baxışdan, maraqlı gedişdir. Amma hər şey bu qədər sadədirmi? Yox! Əslində, "Atlantic Council" nəşrinin yazdıqları da böyük ölçüdə sadəlikdən uzaq vəziyyətin təsviridir.

Bəli, "Atlantic Council"da yayımlanmış məqalə onu göstərir ki, Qərbdə Azərbaycanın və Ermənistanın gəldikləri müştərək qərardan narazılıq var. Mövcud xüsusda bir neçə məqama diqqət yetirilir ki, yazımızda bu barədə söz açacağıq.

Söz açacaq və mahiyyətcə ölkəmizin "Zəngəzur dəhlizi" ideyasına zidd təmayülləri diqqətə çatdıracağıq. Məlumdur ki, Ermənistan hakimiyyəti bu ideyaya qarşı "Dünyanın kəsişməsi" təşəbbüsünü irəli sürür. Görünür, elə buna görə "Atlantic Council" nəqliyyat kommunikasiyalarının açılmasının zəruriliyini əsaslandıran yazısında "Dünyanın kəsişməsi"nə, daha doğrusu, onun əlahiddəliyinə fokuslanır. Heç şübhəsiz, bu fokuslanma Ermənistan hakimiyyətini dəstəkləyən kollektiv Qərbin sifarişidir. Belə bir sifarişin isə konkret nəticələrinin olması ehtimalı var ki, məsələyə yazımızın sonunda nəzər salacağıq.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycanın "yaşıl enerji" çağırışları



Səhifə ⇨ 8

## Yaxın Şərq: nifrət və zorakılıqlar artır



Səhifə ⇨ 11

## Ekvador Respublikasının Prezidenti Zati-aliləri cənab Daniel Noboa Azinə

**Hörmətli cənab Prezident!**

Ekvador Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Ekvador arasında münasibətlər daha da genişlənəcək, çoxtərəfli təsisatlarda əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 avqust 2024-cü il**

## 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2024-cü il avqustun 15-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

**2.** Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2024-cü ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 avqust 2024-cü il**

## Mehriban Əliyevanın Alfonso Dominqesə təbriki

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Alfonso Dominqesin Paris Olimpiadasında gümüş medal alması ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:**

"Boksçu – gümüş medal sahibi Alfonso Dominqesi səmimi-qəlbdən təbrik edirəm! Azərbaycanı Paris Yay Olimpiya Oyunlarında layiqincə təmsil edən idmançımıza güc, enerji, yeni qələbələr və nailiyyətlər arzulayıram!".




## Birinci vitse-prezident: "Əhsən! Sizinlə fəxr edirəm!"




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında bədii gimnastika üzrə qrup hərəkətləri komandasını Yay Olimpiya Oyunlarında tarixi nəticəyə imza atması münasibətilə təbrik edib.**

**Paylaşımda deyilir:**

"Əhsən! Sizinlə fəxr edirəm! Əziz gimnastlar, sizin zəhmətiniz, mətanətiniz və ən yaxşı olmaq istəyiniz sayəsində əldə olunan tərəqqi göz qabağındadır! Məharətinizə, qələbə əzminizə və ən mürəkkəb elementləri zəriflik ilə yerinə yetirdiyinizə görə sağ olun! Sizə yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram! Sizi sevirəm!".



## "Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli 624 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli 624 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 624 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.1.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

2.1.3. Mərkəzin idarəetmə orqanları rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.1.4. Mərkəzin yenidən təşkili və ləğvi;

2.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;";

1.2. 2.3-cü bənd üzrə:

1.2.1. 2.3.1-ci bənddən ", strateji məqsədlərinin və fəaliyyət planlarının" sözləri çıxarılsın;

1.2.2. 2.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.3.2. Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "Sosial Tədqiqatlar Mərkəzinin Nizamnaməsi" üzrə:

1.3.1. 2-ci hissə üzrə:

1.3.1.1. adından "məqsədi və" sözləri çıxarılsın;

1.3.1.2. 2.1-ci bənd ləğv edilsin;

1.3.2. 3-cü hissə üzrə:

1.3.2.1. 3.1.16-cı yarımbənddə "qanunvericilik aktlarının" sözləri "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

1.3.2.2. aşağıdakı məzmunda 3.1.20-1-ci, 3.1.26-1-ci və 3.2.1-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.20-1. sosial tədqiqatlar sahəsində elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;";

"3.1.26-1. Mərkəzin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;";

"3.2.1-1. sosial tədqiqatlar sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;";

1.3.2.3. 3.1.25-ci yarımbənddə "və yerləşdirilməsini" sözləri "yerləşdirilməsini" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "və təhlükəsizliyini" sözləri çıxarılsın;

1.3.2.4. 3.2.11-ci yarımbənddə "fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı" sözləri "sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq," sözləri ilə əvəz edilsin;

1.3.2.5. 3.2.13-cü yarımbənddə "Mərkəzin Nizamnaməsi" sözləri "bu Nizamnamə" sözləri ilə əvəz edilsin;

1.3.3. 4-cü hissə üzrə:

1.3.3.1. 4.5.4-cü və 4.8.8-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.5.4. Mərkəzin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək;";

"4.8.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Mərkəzin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;";

1.3.3.2. 4.5.8-ci yarımbənddən "törəmə" sözü çıxarılsın;

1.3.3.3. 4.6-cı bəndin birinci cümləsində "iclasları ayda bir dəfədən az olmayaraq çağırılır" sözləri "sədri ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir" sözləri ilə, altıncı cümləsində "İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün)" sözləri "iclasa sədrlik edənin" sözləri ilə əvəz edilsin;

1.3.3.4. 4.7-ci bəndin birinci cümləsinə "üzvlərinə" sözündən sonra "və İdarə Heyətinin iclaslarına dəvət olunan digər şəxslərə" sözləri əlavə edilsin;

1.3.3.5. 4.8.7-ci yarımbənddə "Mərkəzin" sözü "özünün və Mərkəzin struktur bölmələrinin" sözləri ilə əvəz edilsin;

1.3.3.6. 4.8.9-cu yarımbənddə "əməkhaqqı" sözü "əməyin ödənişi" sözləri ilə əvəz edilsin;

1.3.4. aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

"5.4-1. Mərkəzin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.";

1.3.5. 7.2-ci bənddən "statistik uçot aparır," sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 avqust 2024-cü il**

## Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının iclası



**Avqustun 10-da Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının iclası keçirilib.**

Bu barədə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan məlumat verilib.

Komissiyanın sədri Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən etdiyi hədəflərə çatmaq üçün Komissiyanın üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb. O, qeyd edib ki, 2024-cü ilin birinci yarımilliyində də dövlət idarəçiliyində səmərəliliyin artırılması, şəffaflığın gücləndirilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı tədbirlər həyata keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar kursu bütün sahələrdə şəffaf və ədalətli idarəçilik sisteminin gücləndirilməsini və vətəndaş məmnunluğunun təmin edilməsini başlıca vəzifələrdən biri kimi qarşıya qoyur. Bu siyasi iradəyə uyğun olaraq korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə sahəsində yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, uğurlu iqtisadi, sosial və hüquqi siyasət nəticəsində Azərbaycan Respublikasında şəffaf münasibətlər sistemi formalaşıb. Dövlət orqanlarında göstərilən xidmətlərin elektronlaşdırılması, eləcə də hüquq-mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan icraatların paralel olaraq elektron formada təşkili vətəndaşların dövlət qurumlarına əlçatanlıq səviyyəsinin artmasına, həmin qurumların şəffaflıq səviyyəsinin yüksəlməsinə səbəb olub. Eləcə də son illər ərzində hüquq-mühafizə orqanları tərəfindən korrupsiyaya qarşı mübarizə tədbirləri daha da gücləndirilib, təqsirkarların cinayət məsuliyyətinə cəlb edilməsi və vurulmuş ziyanın ödənilməsi çərçivəsində işlər davam etdirilir.

İclasda korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə edilib. Bu əməkdaşlıq çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlar olan Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD), Çirkli Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Dəyərləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) tövsiyələri ilə bağlı görülmüş işlər nəzərdən keçirilib. Bununla yanaşı, GRECO-nun 5-ci dəyərləndirmə raundu çərçivəsində verdiyi tövsiyələrin icrası ilə əlaqədar müvafiq qanun layihəsi Komissiya üzvlərinin müzakirəsinə çıxarılıb.

İclasda dövlətə məxsus torpaq sahələri ilə bağlı münasibətlərin tənzimlənməsi zamanı yol verilən korrupsiya hüquqpozmaları barədə məruzə dinlənilib, bu sahədə şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün verilən təkliflər müzakirə edilib. Eləcə də korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətləri barədə məruzə dinlənilərək dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması, dövlət və bələdiyyə mülkiyyətində olmayan kommersiya və ya qeyri-kommersiya qurumlarında korrupsiyaya qarşı mübarizə çərçivəsində görülməli olan tədbirlərin qanunvericilikdə təsbit edilməsi barədə fikir mübadiləsi aparılıb, nəzəriyyə və beynəlxalq təcrübə nəzərdən keçirilib.

Bundan başqa, iclasda Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı bir sıra məsələlər həll edilib, yeni katib təyin olunub, Azərbaycan Respublikasını korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarda təmsil edən nümayəndə heyətinin və hökumət ekspertlərinin tərkibi yenilənib.

Bununla yanaşı, Komissiyanın yanında fəaliyyət göstərən işçi qrupların tərkibinin yenilənməsi və Komissiya yanında iki yeni işçi qrupun formalaşdırılması qərara alınıb.

Komissiyanın növbəti dövr üçün iş planı təsdiq edilib.

***AZƏRTAC***

## Mərkəzi Seçki Komissiyasında

**Avqustun 10-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib. Əvvəlcə Komissiyanın avqustun 8-də keçirilən iclasının protokolu təsdiq edilib. Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə müəyyən olunmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər, beynəlxalq müşahidə missiyası təmsilçiləri, media mənsubları və maraqlı subyektlərin də iştirakı ilə Komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.**

İclasın sonunda avqustun 9-dan start götürən seçkiqabağı təşviqatla bağlı proseslərin gedişi, təşviqat subyektləri üçün yaradılmış hərtərəfli geniş imkanlar və Mərkəzi Seçki Komissiyası tərəfindən ardıcıl, sistemli şəkildə reallaşdırılan layihələr diqqətə çatdırılıb, deputatlığa namizədlər və müşahidəçilərə dair statistik göstəricilər elan olunub, həmçinin cari məsələlərə baxılıb.

**XQ**

# Azərbaycan Mərkəzi Asiyanın Qərbə açılan qapısıdır

**Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələri getdikcə inkişaf edir. Şübhəsiz ki, bu dinamikanı, ilk növbədə, Prezident İlham Əliyevin mütəmadi olaraq Mərkəzi Asiya dövlətlərinə, eləcə də həmin regionda yerləşən ölkələrin başçılarının isə respublikamıza davamlı səfərləri şərtləndirir. Eyni zamanda, bu səfərlər zamanı imzalanan sənədlər ölkələr arasında əməkdaşlığın genişləndirilməsi üçün möhkəm təməl rolunu oynayır.**



Qeyd edək ki, sözügedən əməkdaşlığın möhkəmlənməsinə dövlətimizin başçısı İlham Əliyevin müdrik rəhbərliyi ilə reallaşdırılan uğurlu iqtisadi islahatlar müsbət təsir göstərib. Bunun nəticəsində Azərbaycan Şərqlə Qərb arasında mühüm qovşağa çevrilib. Ölkəmizin inkişaf etdirdiyi nəqliyyat-logistika şəbəkəsi, o cümlədən Ələt Dəniz Ticarət Limanının inşası və imkanlarının artırılması, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, respublikamızın Xəzərdə ən böyük ticarət donanmasına malik olması Avropa ilə Asiya arasında böyük həcmdə daşımaları şərtləndirib. Bu isə Azərbaycanın tranzit imkanlarını gücləndirib, Mərkəzi Asiya ölkələrinin, həmin coğrafiyada yerləşən türk dövlətlərinin inkişafını daha da sürətləndirib.

Yuxarıda qeyd edilənlər bir daha göstərir ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələrin böyük perspektivləri mövcuddur. Bu gün Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verən respublikamız Şərqlə Qərb arasında, o cümlədən Mərkəzi Asiya ölkələri üçün mühüm tranzit ölkə və etibarlı tərəfdaşdır.

Bütün bunlar Prezidenti İlham Əliyevin avqustun 8-də Qazaxıstana səfəri zamanı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündəki çıxışında da öz ifadəsini tapıb. Dövlətimizin başçısı deyib: “Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir. Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir”.

Ölkə rəhbəri çıxışında Ermənistan tərəfindən, təxminən, 30 illik işğal dövründə Qarabağda 9 şəhər və yüzlərlə yaşayış məntəqəsinin xarabalığa çevirildiyini, qəsbkardan təmizlənən ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparıldığını və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının davam etdirildiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev daha sonra ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışının reallaşdığını, həmçinin cari il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirildiyini və bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirib.

Bəli, bu yaxınlıq və doğmalıq Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdalığının getdikcə möhkəmlənməsini şərtləndirir. Münasibətlər demək olar ki, həyatın bütün sahələrində özünü qabarıq büruzə verir. Məsələn, dövlətimizin başçısı nitqində vurğuladığı kimi, Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış “Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu” “yaşıl enerji” sahəsində əməkdaşlıqda ilk addımdır.

Bundan başqa, qarşılıqlı fəaliyyət nəqliyyat-tranzit sahəsində də diqqət çəkir. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində reallaşdırılan genişmiqyaslı layihələr, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəminin daha da artırılması bunun bariz ifadəsidir.

Qeyd edilib ki, Azərbaycan Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirir. Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondlarının yaradılması da bunun təsdiqidir. Həyata keçirilən “Rəqəmsal ipək yolu” layihəsinin rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəyi əminliyi də əməkdaşlığın dinamik inkişafından xəbər verir.

2020-ci ildə Vətən müharibəsində Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad edən Azərbaycan bununla Türk dünyası ölkələri arasında coğrafi bağlantını da təmin etmək üçün gözəl imkan yaradıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin açılması ilə bağlı bəndin yer alması və bu müddəanın yerinə yetirilməsi Türk dövlətlərini coğrafi baxımdan da bir-birinə bağlayacaq, Şərqdən Qərbə uzanan vahid marşrut xəttini formalaşdıracaq ki, bu da böyük bir coğrafiyada yüklərin rahatlıqla, qısa zaman kəsiyində və daha münasib qiymətə daşınmasına böyük töhfə verəcək.

Prezident İlham Əliyevin Astana şəhərində Mərkəzi Asiya və Azərbaycan Respublikası Dövlət Başçılarının görüşündə iştirakı respublikamızla Mərkəzi Asiya ölkələri arasında iqtisadi və ticarət əməkdaşlığının dərinləşdirilməsi istiqamətində əhəmiyyətli addımların atılmasına imkan yaradır. Görüşdə müzakirə olunan məsələləri şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri, ekspert Vüsalə Cəfərovanın sözlərinə görə, Azərbaycan və Mərkəzi Asiya xalqlarının tarixi qardaşlıq və strateji tərəfdaşlığı geoiqtisadi əməkdaşlığın inkişafına zəmin yaradır. Son dövrlər müşahidə olunan müntəzəm yüksək səviyyəli səfərlər də ölkələr arasında əlaqələri daha da möhkəmləndirir.

Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayaraq regional və qlobal gücünü möhkəmləndirir, nəqliyyat və tranzit qovşağı kimi bölgədə əsas söz sahibinə çevrilir. Dost və qardaş ölkələrlə ticarət əlaqələri də getdikcə genişlənir. Təkcə Azərbaycanla Qazaxıstan arasında 2023-cü ildə ticarət dövriyyəsi, təxminən, 467 milyon ABŞ dolları təşkil edib ki, bu da əvvəlki illərlə müqayisədə əhəmiyyətli bir artım kimi diqqət çəkib. Əsas ixrac məhsulları arasında Qazaxıstanın taxılı və Azərbaycanın nefti yer alır. 2023-cü ildə kənd təsərrüfatı sahəsində Qazaxıstan Azərbaycana 1 milyon tondan çox taxıl ixrac edib ki, bu da əvvəlki ilə nisbətən 20 faiz artım deməkdir. Bu ticarət Azərbaycanın ərzaq təhlükəsizliyi və bazar sabitliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın “SOCAR” və Qazaxıstanın “KazMunayGas” şirkətləri arasında genişləndirilməkdə olan birgə müəssisələr Xəzər dənizi vasitəsilə neft ixracını artırmağı hədəfləyir və enerji təhlükəsizliyinin təminatı baxımından önəm kəsb edir.

Ekspert bildirir ki, Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə həyata keçirilən investisiya layihələri, Azərbaycan–Qazaxıstan, Azərbaycan–Qırğızıstan və Azərbaycan–Özbəkistan birgə investisiya fondlarının yaradılması iri layihələrin reallaşdırılması baxımından təminat rolunu oynayır. Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə imzalanmış Əməkdaşlıq Memorandumu isə “yaşıl enerji” sahəsində əlaqələrin daha da möhkəmlənəcəyini şərtləndirir.

Mərkəzi Asiya ölkələri ilə hazırda həyata keçirilən “Rəqəmsal ipək yolu” layihəsi də region üçün böyük əhəmiyyətə malikdir. Bu layihə rəqəmsal infrastrukturun inkişafına, bu sahədə təhlükəsizliyin təmin edilməsinə, iqtisadi inteqrasiya və texnoloji inkişafın təşviqinə yönəlib.

Prezident İlham Əliyevin Astana səfəri türkdilli dünyanın iqtisadi inteqrasiyası üçün mühüm əhəmiyyət kəsb edir. Enerji, nəqliyyat, müdafiə və rəqəmsal infrastruktur sahələrində əməkdaşlıq regionun iqtisadi və geosiyasi birliyini gücləndirmək üçün vahid strategiyanı əks etdirir. Bu inteqrasiya türkdilli dövlətlərin qlobal rəqabət qabiliyyətini artırmaq məqsədi ilə güclü iqtisadi blok yaratmağa xidmət edir.

***VB AYRAMOV***
***XQ***

# Qərb İrəvanı “3+3” formatında iştirakdan yayındırır

**(əvvəli 1-ci səhifədə)**

Rusiya Təhlükəsizlik Şurasının katibi onu da bildirib ki, Bakıya səfəri zamanı keçirilən görüşlərdə Qərbin Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması prosesinə müdaxilə cəhdləri də müzakirə olunub: “Məsələlərin geniş spektri müzakirə edilib. Bunlar, ilk növbədə, Cənubi Qafqazda təhlükəsizliklə bağlı olan məsələlərdir. Bu, Ermənistanla sülh müqaviləsi ilə bağlı məsələdir. Sülh müqaviləsinin onuncu variantı İrəvana verilib. Təbii ki, Qərbin Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanması prosesinə çox fəal müdaxilə cəhdləri var”.




Qeyd edək ki, Cənubi Qafqazda altıtərəfli əməkdaşlıq formatı təşəbbüsü 44 günlük Vətən müharibəsinin başa çatmasından az sonra – 2020-ci ilin sonunda Prezident İlham Əliyev tərəfindən irəli sürülüb. Az sonra bu əməkdaşlıq təşəbbüsü “3+3” adını alıb. Türkiyə, Rusiya və İran bu ideyanı alqışlayıblar. Həmçinin Ermənistan da bu formata qoşulub. Gürcüstan Rusiya ilə münasibətlərinin pis olmasını əsas gətirərərk təşəbbüsdə iştirak etməyi planlaşdırmadığını bəyan edib. 2021-ci il dekabrın 10-da Moskvada beş ölkənin xarici işlər nazirlərinin müavinləri səviyyəsində məşvərətçi regional platformanın ilk iclası keçirilmişdi. İkinci görüş isə beş ölkənin xarici siyasət idarəsi başçılarının iştirakı ilə 2023-cü ilin oktyabrında İranda baş tutmuşdu. Gürcüstan 2021 və 2023-cü ildə keçirilən görüşlərdən kənarda qalıb.

Xarici işlər nazirlərinin “3+3” formatında növbəti görüşünün yaxın vaxtlarda Türkiyədə keçiriləcəyi gözlənilir. Bunu bir müddət öncə İranın Ermənistandakı səfiri Mehdi Sübhani bildirmişdi. Ancaq Azərbaycanla sülhün əldə olunmasında maraqlı olmayan rəsmi İrəvan bu formatda baş tutacaq görüşdə iştiraka razılıq verməyib. Ermənistan xarici siyasət idarəsinin bununla bağlı yaydığı açıqlamada deyilir ki, “3+3” regional platformasının üçüncü iclasında Ermənistanın mümkün iştirakı ilə bağlı konkret razılaşmalar olarsa, bu barədə ictimaiyyətə məlumat veriləcək. Diplomatik dillə ifadə olunan bu açıqlama o deməkdir ki, hələlik rəsmi İrəvan növbəti görüşdə iştiraka razılıq verməyib. Hayastan rəhbərliyinin bu davranışı isə onların gerçək mahiyyətini aşkara çıxaran məqamdır. Rəsmi İrəvan bir daha öz xislətinə sadiq qalaraq, bütövlükdə, bölgədə sülhdə, sabitlikdə, əmin-amanlıqda və əməkdaşlıqda maraqlı olmadıdığını ortaya qoyur.

Gürcüstanın “3+3” formatında iştirakdan imtinası anlaşılandır. 2008-ci ilin avqustunda Rusiya–Gürcüstan müharibəsi baş vermişdir. BMT-yə üzv ölkələrin əksəriyyətinin Gürcüstanın tərkib hissəsi hesab etdiyi Abxaziya və Cənubi Osetiyadakı separatçı rejimləri Rusiyanın müstəqil respublika kimi tanımasından bir qədər sonra – sentyabrın 3-də Tbilisi Moskva ilə diplomatik əlaqələri kəsmişdir. Bu baxımdan Gürcüstan hazırda Rusiya ilə hansısa formatda əməkdaşlığa ehtiyac duymur.

Ölkənin sabiq Xarici işlər naziri David Zalkaliani bildirmişdir ki, Gürcüstan ərazilərini öz nəzarəti altında saxladığı müddət ərzində Rusiya ilə əməkdaşlıq formatında iştirak etməyəcək. O qeyd etmişdi ki, bu formatda əməkdaşlıq, iştirakçı ölkələrin beynəlxalq hüququn təməl prinsiplərinə, o cümlədən ölkələrin suverenliyi və ərazi bütövlüyünün tanınmasına hörmət göstərmələrini tələb edir. Zalkaliani onu bildirmişdi ki, ölkəsi üçtərəfli formatda (Gürcüstan, Azərbaycan və Türkiyə) əməkdaşlığı uğurlu sayır.

Ermənistanla bağlı isə vəziyyət tamamilə fərqlidir. İrəvan torpaqlarımızı uzun illər işğalda saxlasa da, işğal faktı aradan qaldırıldıqdan az sonra Azərbaycan Ermənistana beynəlxalq hüquqa uyğun olan 5 maddədən ibarət prinsipləri təqdim etmişdir. Bu gün ölkəmiz qalib tərəf kimi qarşı tərəfə sülh əlini uzadır. Bu çərçivədə Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən “3+3” formatı region dövlətləri arasında sıx əlaqələri və inteqrasiyanı nəzərdə tutur. Platforma təkcə region ölkələrinin deyil, beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edir. Bu barədə fikir yürüdən hər kəs onun üstünlüklərini vurğulayır. Ekspertlər onu da bildirirlər ki, əməkdaşlıq formatında iştirak Ermənistanın özünün də maraqlarına uyğundur.

Buna baxmayaraq, İrəvanın mövqeyi “3+3” formatında əməkdaşlığın inkişafına maneə kimi qalır. Düzdür, Ermənistan rəsmən formata qarşı çıxmır. Hətta, qeyd etdiyimiz kimi, 2021-ci il dekabrın 10-da Moskvada keçirilən görüşdə xarici işlər nazirinin müavini, 2023-cü ildə Tehranda keçirilən görüşdə isə xarici işlər naziri səviyyəsində təmsil olunub. Ancaq Ermənistanla Azərbaycan arasında bir sıra problemlərin hələ də həllini tapmaması, o cümlədən sülh müqaviləsinin imzalanmaması, İrəvanın regional kommunikasiyaların açılmasına imkan verməməsi iki ölkənin əməkdaşlıq imkanlarına mənfi təsir göstərir.

Diqqət yetirilməli məqamlardan biri də Fransa başda olmaqla bəzi Qərb ölkələrinin Ermənistanı “3+3” formatında əməkdaşlıqdan yayındıra biləcəyi ehtimalıdır. Heç kəsə sirr deyil ki, son vaxtlar Ermənistan–Rusiya münasibətlərində, necə deyərlər, soyuq yellər əsir. Buna paralel olaraq, İrəvanın Qərb ölkələri ilə münasibətləri daha da istiləşir. Ehtimal etmək olar ki, Qərb Rusiya–Ermənistan münasibətlərindəki çatları dərinləşdirmək üçün İrəvanı “3+3” platformasında iştirakdan yayındırır.

Bir müddət öncə isə ABŞ Senatının Xarici əlaqələr komitəsində dinləmələr zamanı dövlət katibinin müavini Ceyms O’Brayn Ermənistanla Azərbaycan arasında aparılan danışıqlar prosesinə və bu məsələdə Moskvanın roluna toxunmuşdu. O qeyd etmişdi ki, Vaşinqton Azərbaycan Prezidenti və Ermənistan baş naziri tərəfindən sülhə nail olunması istiqamətində göstərilən səyləri qətiyyətlə dəstəkləyir. Ceyms O’Brayn onu da bildirmişdi ki, Ermənistan əhalisinin əhəmiyyətli hissəsi Rusiyadan üz döndərmək istəyir və ABŞ buna şərait yaradır. Ermənistan baş nazirinin “Rusiyadan ayrılmaq üçün cəsarətli addımlarını” alqışlayan amerikalı diplomat demişdi ki, ötən ilin sentyabrında Qarabağ ətrafında baş verən hadisələr Ermənistan–Rusiya münasibətlərində ciddi qırılmaya səbəb olub və Hayastan əhalisinin əhəmiyyətli hissəsi Rusiyadan uzaqlaşmaq istəyir. “Beləliklə, biz bunun baş verməsi üçün şərait yaradırıq”, – deyə O’Brayn bildirmişdi. O qeyd etmişdi ki, ABŞ Dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və Ermənistanın baş naziri Nikol Paşinyanın aprel görüşündə Ermənistanın Rusiyadan asılılığını azaltmağa kömək etmək üçün yeni platforma yaradılıb.

ABŞ diplomatının açıqlamalarına münasibət bildirən Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə deyib ki, Qərb Cənubi Qafqazda dağıdıcı gündəmi təbliğ edir. Onun əsas məqsədi Rusiyanın ənənəvi müttəfiqləri və qonşuları ilə tarixi əlaqələrini məhv etməklə regionun ərazisini parçalamaqdır.

İrəvanın regionda yaranmış yeni geosiyasi reallıqları dərk etməyərək, fərqli ünvanlara üz tutması, necə deyərlər, fərqli qapılar döyməsi onların düşdükləri dalanda hələ uzun müddət qalacaqları deməkdir. Ermənistan rəhbərliyi regiondakı məsələləri bölgə dövlətlərinin özlərinin həll etməsi yanaşmasını gec-tez qəbul etməlidir. Onlar başa düşməlidirlər ki, “3+3 formatının fəaliyyətə başlaması regionda sülh və sabitliyə böyük töhfə verəcək.

**Politoloq İlyas Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, İrəvan xarici emissarların fikirlərini əsas götürməkdənsə, “3+3” formatına qoşulmalı, regionda yaranmış yeni geosiyasi və geostrateji imkanlardan yararlanmalıdır. Bu imkanların əsas təşəbbüskarı isə Azərbaycan dövlətidir: “Azərbaycan hər zaman regional inteqrasiyaya öz töhfəsini verib. Ölkəmiz hər zaman əməkdaşlıq platformasının yaradılmasında maraqlı olub. “3+3” formatı xalqların rifahına xidmət etməklə yanaşı, həm də sülhə və təhlükəsizliyə böyük töhfələr verir. Burada bütün dövlətlərin maraqları nəzərə alınır. Yəni, Cənubi Qafqazın 3 ölkəsi ilə yanaşı, Ankara, Moskva və Tehran da burada öz potensiallarını genişləndirə, geostrateji imkanlarını artıra bilərlər. Rəsmi İrəvan da rasional addım atmalı, “3+3” formatının Cənubi Qafqazın və bütövlükdə, regionun möhkəm, dayanıqlı təhlükəsizliyinə, ilk növbədə, bölgə xalqlarının inkişafına və tərəqqisinə xidmət edəcəyini anlamalıdır”.



***Səxavət HƏMİD***
***XQ***

# “Dünyanın kəsişməsi” Zəngəzur dəhlizinə qarşı




**(əvvəli 1-ci səhifədə)**

Beləliklə, “Atlantic Council” yazır ki, Ermənistanın “Dünyanın kəsişməsi” ideyası ölkəni qonşuları – Türkiyə, Azərbaycan, İran və Gürcüstanla birləşdirməyə yönəlmiş iddialı regional nəqliyyat təklifidir. Bu təşəbbüs Xəzər dənizini Aralıq dənizinə, Fars körfəzini Qara dənizə birləşdirərək malların, enerjinin və insanların axınını asanlaşdırmaq üçün mühüm infrastrukturun - avtomobil və dəmir yollarının, boru kəmərlərinin, kabellərin və elektrik xətlərinin canlandırılması və inkişafı məqsədini daşıyır. Məsələ həm də Ermənistanın Cənubi Qafqazda sülh gündəliyinin mühüm hissəsini təşkil edir. Rəsmi İrəvan bu marşrutu iştirakçı ölkələr arasında iqtisadi, siyasi və mədəni əlaqələrin gücləndirilməsi və bununla da regionda uzunmüddətli sülh və sabitliyin təşviqi üçün vasitə sayır. Ən əsası isə nəşr vurğulayır ki, regiona iqtisadi fayda gətirmək, Cənubi Qafqazda sülh və əməkdaşlığı təşviq etmək və Ermənistanın Rusiyadan asılılığını azaltmaq potensialına malik olan Qərb diplomatik yardım və infrastruktur sərmayələri ilə “Kəsişmə” planını dəstəkləməlidir. Ancaq plan hazırda mühüm geosiyasi maneələrlə üzləşir, Azərbaycan Ermənistanın təşəbbüsünü dəstəkləməkdən boyun qaçırır.

Göründüyü kimi, Qərb dünyası mövcud durumdan narazıdır və “Atlantic Council”un məqaləsi fikrimizin təsdiqidir. Nəşr çalışır ki, yenidən məsələni Bakı-İrəvan sülh gündəminin tərkibinə qaytarsın. Ona görə də regiondan kənar, ancaq bölgə ilə bağlı ölkələrin maraqlarını qabardır. Məsələn, Türkiyənin. Media orqanı bildirir ki, Ankara üçün “Dünyanın kəsişməsi”ni dəstəkləmək onu strateji cəhətdən regionda sülh vasitəçisi statusuna yüksəldə bilər ki, bu da Türkiyənin təkcə yaxın qonşuları ilə deyil, bütün Avropa və Asiyada diplomatik əlaqələrini gücləndirər.

“Atlantic Council” məqaləsində Azərbaycanın “Zəngəzur dəhlizi” təşəbbüsündən də söz açır. Nəşr yazır ki, Bakının tələbi Azərbaycanla vahid tranzit marşrutunun açılmasını nəzərdə tutduğu halda, Ermənistanın layihəsi həm Azərbaycan, həm də Türkiyə ilə bir neçə sərhəd keçidinin yaradılmasını əsas götürür. Bu deyim nə deməkdir? O deməkdir ki, Qərb dünyası “Dünyanın kəsişməsi”ni “Zəngəzur dəhlizi”ndən öndə tutur. Heç şübhəsiz, belə qoyuluş həm ölkəmizin mövqeyini mübahisələndirmək, həm də İrəvanın irəli sürdüyü ideyanı düşüncələrdə möhkəmləndirmək məqsədi daşıyır. Bu baxımdan prioritet sayılan məntiq də var. Söhbət Ermənistanın ərazi bütövlüyündən və suverenliyindən gedir.

Başlıca məqama keçid alaq. “Atlantic Council” onu da vurğulayır ki, Azərbaycanın Zəngəzurla bağlı planları Qərbin maraqlarına ziyan vurur: “Birincisi, bu, Qərbin enerji marşrutları, Avropa, Asiya və Yaxın Şərq arasında geosiyasi tarazlıq üçün mühüm əhəmiyyət daşıyan Cənubi Qafqazı sabitləşdirmək və iqtisadi cəhətdən inkişaf etdirməki kimi strateji hədəfini sarsıdacaq. Azərbaycan daha geniş regional inteqrasiya təşəbbüslərini dayandırmaqla, logistik maneələrlə üzləşən və xarici geosiyasi təsirlərə görə pozulmalara məruz qala bilən Gürcüstan ərazisindən keçən mövcud marşrutlardan asılılığı davam etdirir”.

“Atlantic Council”un yazdığına görə, davamlı gərginlik və bunun nəticəsində Cənubi Qafqazda hərtərəfli sülh və əməkdaşlığın olmaması, Rusiya və İrana Cənubi Qafqazda təsirini göstərməyə imkan verir. Ermənistanın təcridi isə onun Rusiyadan asılılığını saxlayacaq, Qərbin regionda demokratik idarəçiliyin və bazarın liberallaşdırılmasının təşviqi səylərini sarsıdacaq. Həmçinin, Ermənistanın iqtisadi və əlaqə imkanlarına maneə, Qərbin regiona cəlbi və investisiya imkanlarını məhdudlaşdıracaq. Bu isə Ermənistanı Rusiya ilə ticarətdən həddindən artıq asılı vəziyyətə salacaq.

Yekunda “Atlantic Council” belə qənaətə gəlir ki, “Dünyanın kəsişməsi” təşəbbüsü daha perspektivli yoldur. Bu təşəbbüs Cənubi Qafqazda qarşılıqlı iqtisadi artım və əməkdaşlığın yeni erasına yol açmaqla, regional sabitlik və rifah üçün katalizator rolunu oynaya bilər. Nəşr, eyni zamanda, bu qənaətə gəlir ki, “Dünyanın kəsişməsi” iqtisadi stimulları geosiyasi imkanlarla uyğunlaşdırır. Mövcud səbəbdən Ermənistan Qərbin daha güclü dəstəyinə layiqdir. Qərb ölkələri Transxəzər dəhlizinə inteqrasiya və bütün Cənubi Qafqazda əməkdaşlığı inkişaf etdirmək səylərini dəstəkləməklə, regionun Rusiyadan daha az asılı olan canlı iqtisadi mərkəzə çevrilməsinə kömək göstərə bilərlər. Buna görə də Türkiyəyə və Azərbaycana diplomatik təzyiqlər şərtdir ki, konstruktiv nəticə əldə olunsun, habelə Ermənistana təcavüzün qarşısı alınsın.

Göründüyü kimi, “Atlantic Council” “Dünyanın kəsişməsi” məntiqini qabartmaqla, Azərbaycan və Ermənistan arasındakı müştərək razılaşmanı heçə endirmək məqsədini güdür. Nəzərə alsaq ki, Ermənistan hakimiyyəti kənar təsirlər nəticəsində əldə olunmuş razılaşmalara çıxacaq qədər prinsipsizdir və belə məqalələr elə-belədən ortaya çıxmır, deməli, rəsmi İrəvanın yaxın perspektivdə sülhün hazırkı şərtlərindən uzaq dayanmasını da ehtimal etmək mümkündür.

***Ə.CAHANGİROĞLU***
***XQ***




# Ermənistanın KTMT-dən çıxması müşküldür

## *İrəvan bu “kartla” Qərb ilə Rusiya arasında oyununu davam etdirir*

**“Avqustun 14-16-da Novosibirskdə elan olunmuş KTMT-nin “Kobalt-2024” kollektiv çevik reaksiya qüvvələrinin xüsusi təyinatlı bölmələrinin təlimlərinin iştirakçıları arasında Rusiya, Belarus, Qazaxıstan, Tacikistan və Qırğızıstan var. Amma Ermənistan KTMT-nin bu təlimlərində yenə iştirak etməyəcək”.**





TASS-ın Rusiya Milli Qvardiya Qoşunlarının mətbuat xidmətinə istinadən yaydığı xəbərini erməni mediası da təkrarlayıb. Məlumatda, həmçinin deyilir ki, avqustun 14-də Rusiya Milli Qvardiya Qoşunlarının Novosibirsk Vilayəti üzrə Federal Xidmətinin rəhbərliyi ilə idarənin təlim mərkəzinin bazasında komanda-nəzarət orqanları və xüsusi təyinatlılarla xüsusi təlimlərin təntənəli açılışı olmalıdır. Bu zaman KTMT-nin “Kobalt-2024” kollektiv çevik reaksiya qüvvələrinin birgə təliminə start veriləcək və tədbir avqustun 16-da başa çatacaq. Təlimlərdə Rusiya, Belarus, Qazaxıstan, Tacikistan və Qırğızıstanın aidiyyatı nazirlik və idarələrinin nümayəndələri iştirak edəcəklər.

*

Bu, xəbərin birinci hissəsi idi. KTMT-nin mətbuat xidmətinin yaydığı ikinci məlumatda isə deyilir ki, Ermənistan sentyabrın 3-dən 15-dək Qırğızıstanda keçiriləcək KTMT-nin “Qarşılıqlı fəaliyyət - 2024” komanda-qərargah təlimlərində iştirak etməyəcəyi barədə təşkilata xəbər verib: “Ermənistan tərəfi təlimlərdə iştirak etməyi planlaşdırmadığını bildirib”.

**ARAYIŞ:** *Rusiya, Ermənistan, Belarus, Tacikistan, Qazaxıstan və Qırğız Respublikasının daxil olduğu KTMT 1992-ci il mayın 15-də yaradılan hökumətlərarası hərbi ittifaqdır. Rusiyanın söz sahibi olduğu KTMT nizamnaməsinə əsasən, üzv ölkələr güc tətbiq etməkdən çəkinməlidir. Onlar hər hansı başqa bir hərbi ittifaqa və ya ölkə qruplarına qoşula bilməz. İttifaqdaxili əməkdaşlığı inkişaf etdirmək məqsədilə KTMT ölkələri hər il birgə hərbi təlimlər təşkil edirlər. Rusiyanın blokun digər üzvlərinə öz ərazilərində xarici dövlətlərə məxsus hərbi bazaların yerləşdirilməsinə veto qoymaq hüququ var. Üçüncü ölkəyə məxsus hərbi bazaların hər hansı KTMT üzvü olan dövlətdə yerləşdirilməsi üçün mütləq təşkilatın bütün üzvlərinin rəsmi razılığı olmalıdır.*

Ermənistan bu dəfə də hərbi blokun irimiqyaslı tədbirlərində iştirakdan imtina edir. Bəs, onun bundan sonrakı addımı nə olacaq? Nəhayət, bloku birtərəfli qaydada tərk etməyə, qapını çırpıb getməyə cürəti çatmayan rəsmi İrəvanın qarşısını kəsən hüquqi prosedur da var. KTMT-dən çıxmağa blokun bütün üzvlərinin razılığı tələb olunur...

**Mövzu ilə bağlı danışan qazaxıstanlı politoloq, beynəlxalq məsələlər üzrə ekspert Kazbek Beysebayev** qeyd



edib ki, həqiqətən də son vaxtlar Ermənistan KTMT-nin müxtəlif tədbirlərində iştirak etmək istəmədiyini açıq şəkildə dilə gətirir: “Buna görə də Ermənistanın Novosibirsk və Qırğızıstandakı təlimlərdə iştirakdan imtina etməsi təəccüblü olmadı. Burada qeyd etməliyik ki, son vaxtlar hamımız Moskva–İrəvan münasibətlərinin soyumasını müşahidə edirik. Ermənistan daha çox Qərbə üz tutmağa başlayıb və bu, Moskvanın xoşuna gəlmir. Amma onu da unutmayaq ki, Rusiya KTMT-də aparıcı rola malikdir. Bu baxımdan Ermənistanın tərəddüdləri başadüşüləndir”.

Ekspert İrəvanın bu cür mövqeyinin KTMT-nin fəaliyyətinə ciddi təsir edəcəyini düşünmür: “KTMT Ermənistanın bu hərbi manevrlərdə iştirak etməməsinə xüsusi diqqət yetirməyəcək, öz qrafikinə uyğun olaraq fəaliyyətini davam etdirəcək. Yəni birgə təlimlər və digər tədbirlər davam etdiriləcək”.

Ermənistanın MDB-nin NATO-su hesab edilən KTMT-ni tərk etməyəcəyi çoxlarına bəllidir. Ən azı ona görə ki, KTMT faktiki olaraq Rusiyanın diktəsi ilə yaranan və fəaliyyət göstərən təşkilatdır. Və onu tərk etmək üçün mütləq Kremlin razılığı olmalıdır ki, İrəvan isə bunu etmək iqtidarında deyil.

*

**Sankt-Peterburq Dövlət Universitetinin professoru Stanislav Tkaçenko** bildirib ki, Ermənistanla Rusiya arasın-



da münasibətlər istədiyi şəkildə deyil: “Ermənistanın indiki rəhbərliyi 2020-2023-cü illərdə Qarabağ hadisələrində İrəvanın məğlubiyyətinə görə Rusiyanın KTMT lideri kimi məsuliyyət daşıdığını aydınlaşdırmağa çalışır. Etiraf etmək lazımdır ki, bu səylər boşa getmədi, Ermənistanda ictimai rəy əksər hallarda Qarabağdakı işğalçılıq siyasətinin iflasa uğramasını Paşinyan və onun çevrəsi ilə əlaqələndirmir. Bütövlükdə, ölkədə anti-Rusiya əhval-ruhiyyəsi o qədər populyar olmasa da, rusofobiya və “Qərb bizə kömək edəcək” kor-koranə inamı getdikcə İrəvandakı rəhbərliyin ofislərinə daxil ola bilir. Eyni zamanda, “Qərb” dedikdə ABŞ, Aİ, həm də Avropanın ayrı-ayrı dövlətləri nəzərdə tutulur”.

S.Tkaçenko hesab edir ki, Ermənistan 1992-ci ildən postsovet məkanında mövcud olan əsas hərbi blokdan və 2002-ci ildən indiki təşkilati-hüquqi statusundan getdikcə uzaqlaşır: “Aydındır ki, Ermənistan siyasətçilərinin indiki nəslinin məqsədi ölkələrini KTMT-dən tədricən çıxarmaq, eyni zamanda, Aİİ üzvlüyünü saxlamaq və Rusiya ilə geniş ticarət və investisiya əlaqələrini inkişaf etdirməkdir”.

Reallıq ondan ibarətdir ki, Moskva İrəvanın əsas iqtisadi tərəfdaşı olaraq qalmaqdadır. Son iki ildə Ermənistan iqtisadiyyatının artım tempi heyrətamizdir. Bu isə daha çox erməni mallarının Rusiya bazarına çıxışı və sanksiyaya düşən məhsulların qeyri-rəsmi şəkildə şimala ötürməsi və bundan qazanması ilə izah olunur. Kreml bugünədək İrəvanın şıltaqlığına dözüb, diplomatik səbr nümayiş etdirib. Fəqət Rusiyanın əsas prioritetləri təhlükəsizlik, o cümlədən Qafqaz regionunda mövqeyini qorumaqdır ki, bu da ali rəhbərlik tərəfindən dəfələrlə səsləndirilib.

“Ermənistan heç Rusiyanın nə müttəfiqidir, nə də partnyoru. O, sadəcə olaraq, Moskvanın əlaltısıdır. Əgər Paşinyan komandası elə düşünürsə ki, onu Avropada səbirsizliklə gözləyirlər, yanılır. O, bunu ancaq yuxusunda görə bilər”.

**Bu fikirləri “XQ” ilə bölüşən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** Kremlin İrəvanı cəzalandıra biləcəyini də istisna etmədi: “Reallıq odur ki, Rusiyanın Ermənistana kifayət qədər təsir göstərmək resursları var. Rusiyanın bu ölkənin ərazisində hərbi bazası var, Ermənistan sərhədlərini rus sərhədçiləri qoruyurlar. Eyni zamanda, bütün nəqliyyat, dəmir yolu şəbəkəsi, demək olar ki, iqtisadiyyatı Rusiyanın nəzarətindədir. İrəvanın bu cür siyasi manevrləri, yəni, həm KTMT-də qalması, həm Avropa İttifaqına qoşulması, həm də ABŞ və Fransadan silah-sursat alması uzun müddət çəkə bilməz. Paşinyan KTMT-dən çıxmaq xülyalarından əl çəkməlidir, yoxsa özünü daha çətin labirintə salacaq. Oradan isə çıxış yolunu tapmaq müşküldür”.

*

Belə ehtimal etmək olar ki, Moskva və İrəvan hazırda bir-birinin addımlarını diqqətlə izləməkdədir. Paşinyan KTMT-dən çıxmaq üçün Brüssel və Vaşinqtondakı tərəfdaşlarla təhlükəsizlik sazişlərinin bağlanmasının nisbətən ağrısız keçəcəyi anı müəyyənləşdirməyə çalışır. Kreml isə, onun, guya, “strateji məğlubiyyəti”ni gözləyən, Rusiyanın əleyhdarları ilə birləşən İrəvandan hansı məqamdan sonra qəti addım atmağı tələb edəcəyi barədə düşünür.

Ermənistan, sadəcə, KTMT ilə “alverini” davam etdirmək niyyətindədir. Ölkənin qərbyönümlü müxalifətinin arzusu kimi dövriyyəyə buraxılan bu iddialar bəzi məqamlarda iqtidarı üçün əlverişli yön alır. Doğrudur, bu iddialara hələlik heç kim ciddi yanaşmır, çünki Ermənistanın KTMT-dən ayrılmaq perspektivinə inanmırlar. Axı İrəvan rəsmi səviyyədə belə bir məsələ qaldırmayıb. Elə Moskva isteblişmenti də Paşinyanın bu diplomatik jestlərini ciddi qəbul etmir. İrəvanın KTMT-yə həm də Azərbaycana təsir göstərmək aləti kimi baxdığını hamı yaxşı bilirdi.

Amma bu gün Ermənistan nə KTMT, nə də digər amillər vasitəsilə Azərbaycana təsir göstərmək gücündədir. Bunun əsas səbəblərindən biri isə Rusiya ilə Azərbaycan arasında yüksək səviyyəli münasibətlərdir. Strateji müttəfiqliyə söykənən bu münasibətlər elə statusa malikdir ki, Ermənistanın ona nəinki toxunması, heç yaxınlaşması mümkün deyil.

***İmran BƏDİRXANLI***
***XQ***



# Milli Məclisə seçkilərə 20 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Seçmək vətəndaşın özəl hüququdur

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) və Naxçıvan Muxtar MR Mərkəzi Seçki Komissiyası tərəfindən birgə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, "Vətəndaşların seçki hüququnun konstitusion əsasları" mövzusunda tədbir keçirilib.**

Dəyirmi masa formatında təşkil edilən tədbirdə dövlət orqanlarının əməkdaşları, seçki məntəqələrinin məsul şəxsləri, gənc seçicilər və media nümayəndələri iştirak ediblər.





Ombudsman aparatı tərəfindən hazırlanmış "Azərbaycan parlamenti müstəqillik illərində" adlı videoçarxın nümayişindən sonra çıxış edən muxtar respublikanın ombudsmanı Günay Rzayeva vətəndaşların seçki hüququnun daha səmərəli təmin olunması və seçki sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, demokratik dövlət quruculuğu, insan hüquq və azadlıqlarının təminatı barədə danışıb.

Naxçıvan MSK-nın sədri Əkrəm Hüseynzadə Naxçıvan MR Ali Məclisinə seçkilərin keçirilməsi ilə bağlı görülən işlər və birgə təşkil edilən maarifləndirici tədbirlərin əhəmiyyəti barədə məlumat verib.

Sonra "Vətəndaşların seçki hüququnun təmin olunması" mövzusunda təqdimat edilib, ilk dəfə seçki hüququndan istifadə edən gənclərə "Mənim seçki hüququm" adlı bukletlər paylanılıb, xatirə fotosu çəkilib.

*XQ*

# Namizədlərin siyahısı hazırdır



**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahıları dərc edilib.**

Milli Məclisə deputatlığa namizədlərin siyahısı Mərkəzi Seçki Komissiyasının saytında yerləşdirilib.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 26.2.5, 148.5-ci maddələrinə əsasən, MSK qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahısının dərc olunmasını səsvermə gününə azı 20 gün qalanadək təmin etməlidir.

*XQ*

# 1052 nəfərin namizədliyi qeydə alınıb



**Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1052 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.**

Bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın avqustun 10-da keçirilən iclasında söyləyib.

O bildirib ki, deputatlığa namizədliyini irəli sürənlərdən, sadəcə, 1420 nəfəri imza vərəqəsi alıb.

*XQ*

# Təşviqat qarşılıqlı hörmətə əsaslanmalıdır



**"Mərkəzi Seçki Komissiyası bütün namizədləri qanunvericiliyin tələblərinə əməl etməyə çağırır". Bunu "Secki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında MSK sədrinin müavini Rövzət Qasımov deyib. Onun sözlərinə görə, deputatlığa namizədlərin bərabər şərtlərlə təşviqat kampaniyasını aparması üçün qanunvericiliyin tələblərinə uyğun lazımi addımlar atılıb:**

"Bütün dairələrin ərazisində müvafiq qurumlarla əməkdaşlıq şəraitində kifayət qədər, hətta artıqlaması ilə açıq və qapalı yerlər müəyyənləşdirilib.

Ümumilikdə, respublika üzrə 5 506 açıq və qapalı yer ayrılıb. Həmin yerlər heç bir ödəniş tələb olunmadan təşviqat subyektlərinin sərəncamındadır. Namizədlər ayrılmış yerlərdə sərbəst şəkildə öz seçiciləri ilə görüşmək imkanına malikdirlər. Eyni zamanda, deputatlığa namizədlər ödənişli seçkiqabağı təşviqata qoşulmaqla bağlı MSK-ya müraciət etmiş 58 media qurumunda bərabərlik prinsipi əsasında və eyni şərtlərlə ödənişli təşviqat apara bilərlər".

R.Qasımov onu da əlavə edib ki, bütün namizədlərdən qanunvericiliyin tələblərinə uyğun, bir-birinə qarşılıqlı hörmət şəraitində təşviqat aparmaları təvəqqe olunur: "Təşviqatın məqsədi digər namizədlərə qarşı kampaniya aparmaq deyil, seçicilərə öz ismarıclarını çatdırmaq olmalıdır".

*XQ*

# Seçki kampaniyasında medianın rolu əvəzsizdir

**Seçki hüquq münasibətlərinin məzmununda seçki prosesi dövründə seçkilərlə bağlı obyektiv məlumatların yayılması və əldə edilməsi üzrə hüquq, azadlıq və vəzifələr, habelə həmin hüquq və azadlıqların həyata keçirilməsi təminatları xüsusi yer tutur. Müasir şəraitdə seçkilərin informasiya təminatı olmadan seçki prosesinin həyata keçirilməsi real görünmür. Seçkilərin informasiya təminatı əsasən iki aspekti özündə əks etdirir: seçicilərin məlumatlandırılması və seçkiqabağı təşviqat.**

Seçkilərin informasiya təminatının başlıca məqsədi həm seçki kampaniyasının gedişi, həm də namizədlər barədə dolğun məlumatların verilməsindən ibarətdir. Seçicilərin məlumatlandırılması onlara seçki qanunvericiliyinin müddəaları, seçkilərin təşkili və keçirilməsi, seçki hərəkətlərinin yerinə yetirilməsinin müddətləri və qaydası, qeydə alınmış namizədlərlə bağlı informasiya verilməsini nəzərdə tutur. Seçkilərin işıqlandırılması üzrə media subyektərinin fəaliyyəti seçicilərin məlumatlandırılmasının formalarından biri kimi çıxış edir.

Media subyektləri cəmiyyətdəki iqtisadi, siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə operativ və doğru məlumatlar almaq hüququna malikdirlər. Bu hüquq Azərbaycan Respublikasının qanunvericiliyində göstərilən hallardan başqa, məhdudlaşdırıla bilməz. Seçki kampaniyası ilə bağlı tam, obyektiv və mötəbər informasiya vətəndaşlar tərəfindən seçki hüquqlarının dolğun və səmərəli surətdə həyata keçirilməsinin və seçicidə onun seçiminə təsir göstərən müəyyən prioritetlərin formalaşmasının ən zəruri şərtlərindən biri kimi çıxış edir.

Seçki prosesində media subyektləri iki aspektdə mühüm rol oynayır: məlumatlandırma vasitəsi kimi və təşviqat vasitəsi kimi.

Media subyektlərinin seçki kampaniyasında rolu əvəzsizdir. Məlumdur ki, namizədlər və ya siyasi partiyalar haqqında əhalidə yaranan təsəvvürü, başlıca olaraq, media subyektləri formalaşdırırlar. Bundan başqa, müasir media mahiyyətcə vətəndaşlarda siyasi seçki motivasiyası yaradan başlıca faktorlardan biridir. Media subyektlərindən məharətlə istifadə edilməsi əhalinin əsas təbəqələrinin, müxtəlif hakim dairələrin və ya ayrıca maraq qruplarının dəstəyini qazanmağa imkan yarada bilər. Media subyektlərindən fəaliyyətinin bu xüsusiyyəti seçki kampaniyasının həyata keçirildiyi dövrdə özünü daha bariz şəkildə büruzə verir. Bu baxımdan təsadüfi deyildir ki, siyasi texnoloqlar və rabitə sahəsində mütəxəssislər seçki kampaniyasının və namizədin seçki qərargahının işinin mühüm elementi kimi media sub-



yektləri ilə səmərəli münasibətlərin qurulmasını göstərirlər.

Qeyd etmək lazımdır ki, seçki kampaniyası çərçivəsində media subyektləri ən müxtəlif vəzifələri yerinə yetirə bilərlər: fəaliyyəti artıq seçilmiş olan istiqamətə yönəltmək; passiv vətəndaşları seçkilərdə iştiraka cəlb etmək; formalaşmış əqidəni yeniləyərək və möhkəmləndirərək tərəfdarları saxlamaq; siyasi prioritetləri dəyişmək. Seçki kampaniyalarının aparılması təcrübəsi media subyektlərinin seçki prosesində iştirakının aşağıdakı istiqamətlərini fərqləndirməyə imkan verir:

– seçki qanunvericiliyinin təşəkkülü və yenilənməsi, seçki hüququ və seçki prosesinin müxtəlif institutlarının hüquqi tənzimlənməsi, habelə referendumların təşkili və keçirilməsi ilə bağlı problemlərin təhlili və işıqlandırılması;

– seçki kampaniyasının və onun nəticələrinin geniş və ardıcıl surətdə işıqlandırılması;

– seçkiqabağı təbliğatın aparılması üçün seçici birliklərinə, seçki bloklarına, namizədlərə ödənişsiz və ödənişli efir vaxtının, nəşr imkanlarının təqdim edilməsi ilə bağlı təşkilati və texniki xarakterli məsələlərin həll edilməsi;

– seçki prosesinin müxtəlif iştirakçıları tərəfindən seçki və referendum qanunvericiliyinə əməl olunmaqla, seçki prosesi üzərində geniş ictimai nəzarətin həyata keçirilməsi.

Media subyektləri seçki kampaniyasında öz funksiyalarını həm də siyasi partiya və namizədlərin seçki proqramlarının, habelə seçki prosesində irəli sürdükləri ideya və təkliflərin müzakirəsi, tənqidi və dəstəklənməsi yolu ilə həyata keçirirlər.

Media subyektləri nümayəndələrinin tələbi ilə seçki komissiyası qərarlarının, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların surətləri seçki komissiyası tərəfindən təsdiq olunmalıdır.

Seçki Məcəlləsinin 77-ci maddəsi seçkiqabağı təşviqat zamanı media subyektərinin aşağıdakı əsas vəzifələrini müəyyən edir:

a) İctimai televiziya və radio yayımçıları və ya dövri nəşrlərin redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olduqda və ya onlar dövlət büdcəsindən maliyyələşdirilərsə, ictimai televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara və siyasi partiyaların bloklarına seçkiqabağı proqramlarını təbliğ etməkdən ötrü, üzvlərinin sayı 20 min və daha çox olan referendum üzrə təşviqat qruplarına referenduma çıxarılan məsələlərin lehinə və əleyhinə təşviqat aparmaqdan ötrü dövlət hakimiyyəti orqanlarının ayırdığı vəsait hesabına bərabər şərait yaradırlar. Göstərilən təşkilatlar qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referenduma çıxarılan məsələlərin lehinə və ya əleyhinə öz təşəbbüsləri ilə seçkiqabağı təşviqat apara bilməzlər. Dövlətə məxsus olan televiziya və radio yayımçıları vasitəsilə seçkiqabağı təşviqat aparılmır.

b) Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan televiziya və radio yayımçıları, habelə dövri nəşrlərin redaksiyaları prezidentliyə qeydə alınan namizədlərə, birmandatlı seçki dairələrinin 60-dan çoxunda və ya bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına, üzvlərinin sayı 40 min və daha çox olan referendum üzrə təşviqat qruplarına seçkiqabağı təşviqat aparmaq üçün şərait yaratmağa borcludurlar. Mərkəzi Seçki Komissiyası göstərilən televiziya və radio yayımçılarının və dövri nəşrlər redaksiyalarının siyahısını seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edilməsi günündən 20 gün gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının təqdimatına əsasən dərc edilir.

***İlkin ŞAHBAZOV,***
***Mərkəzi Seçki Komissiyasının üzvü***

# Paşinyan iqtidarını "qızmar payız" gözləyir

**Erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın "Vətən naminə Tavuş" adlanan qondarma hərəkatının uğursuzluğa düçar olmasına baxmayaraq, keşiş öz əməllərindən əl çəkənə oxşamır. Yayın qızmar istisinə rəğmən, onlar yenə də ölkənin müxtəlif şəhər və rayonlarını, kənd və qəsəbələrini gəzib dolaşır, əhali arasında təbliğat işləri aparır, sıralarını genişləndirməyə çalışırlar.**

Baqratın keçirdiyi görüşlərdə, bir qayda olaraq, hakimiyyətin ünvanına tənqidi fikirlər səsləndirilir, iqtidar qorxaqlıqda, satqınlıqda, səriştəsizlikdə və acizlikdə ittiham olunur. Qondarma hərəkatın adını "Müqəddəs mübarizə"yə dəyişən arxiyepiskop bugünlərdə hayların "Masis" adlandırdıqları tarixi Azərbaycan yaşayış məskəni – Zəngibasar rayonunun kəndlərində olub. Arxiyepiskopun ilk dayanacağı Sayat-Nova kəndi olub və burada sakinlərlə görüşüb. O, daha sonra Taperakan kəndinə gedib. Bundan sonra Zəngibasarda görüş keçirib.

Ermənistanda payız aylarında yeni etiraz aksiyalarının olacağından hakimiyyət də ehtiyatlanır. Ölkənin populyar qəzetlərindən olan "Joxovurd"un yazdıqları belə deməyə əsas verir. Qəzet məlumatlı mənbələrə istinadən bildirir ki, iqtidar özünü müxalifətin, eləcə də küçələrə çıxan insanların mübarizəsindən heç bir şəkildə "qorxmadığını" göstərməyə hər nə qədər çalışsa da, yenə də bütün bunlar hakimiyyəti çox narahat edir: "Mənbələrimizin bildirdiyinə görə, "Vətəndaş müqavilə"sində "bu ilin sentyabrında nə gözləmək olar" sualı xeyli müddətdir müzakirə olunur. Axı bizdə olan məlumata görə, arxiyepiskop Baqrat Qalstanyan əvvəllər bəyan etmişdi ki, sentyabrın 10-dan "qızmar payız" gözlənilir. Əldə etdiyimiz məlumata görə, "Vətəndaş müqavilə"sinin nümayəndələri "qızmar payız"da onları nə gözləyə biləcəyini müzakirə ediblər. Çünki həmin vaxt parlamentin də payız sessiyası başlayacaq. İndi addımlar atılır, tədbirlər görülür ki, onların payızda işi pozulmasın".

"Joxovurd" arxiyepiskop B.Qalstanyanın əvvəllər həm küçələri, həm də parlamentə giriş-çıxışı bağlamağa nail olduğu xatırladır. Eyni zamanda, qeyd edilir ki, bu, polisin qanunverici orqanın normal fəaliyyətini təmin etməyə çalışdığı şəraitdə baş verib: "Hakimiyyət bundan narahatdır və çətin vəziyyətə düşməmək üçün addımlar atır. İqtidar iyunun 12-də parlamentin qarşısında elə bir vəziyyətlə üzləşdi ki, hərəkat iştirakçılarını dağıtmaq üçün səs-küy qumbaralarından istifadə etmək zərurəti yarandı".

"Hraparak" qəzeti isə yazır ki, Nikol Paşinyan ölkədə gündəmi diktə etməyi dayandırıb, əksinə, o, ictimai gündəmə tabe olub: "Mənbələrimizdən öyrəndik ki, Paşinyan ictimai reaksiyanı diqqətlə izləyib və insanların onun bir aylıq məzuniyyəti ilə bağlı xəbərlərə çox mənfi reaksiya verdiyini müşahidə edib. Sosial şəbəkələrdə az qala hər istifadəçi yazıb ki, baş nazir "qorxulu müharibədən" (?) əvvəl bir aylıq məzuniyyətə çıxıb. Və hər bir itirilmiş səs indi vacib olduğundan, o, ictimai arenada çıxış etmək qərarına gəlib: Məzuniyyətdədir, amma işləyir. Yəni, məzuniyyətini qeyri-rəsmi olaraq ləğv edib, rayonlara səfərə başlayıb, müxtəlif tədbirlərdə iştirak edir. Baxmayaraq ki, bu halda rayonlarda rəsmi qarşılanma mərasimlərinin nə üçün keçirildiyi aydın deyil".

Qeyd edilir ki, N.Paşinyanın məzuniyyətini "pozan"lardan biri də bugünlərdə vətəndaşlarla aktiv görüşlər keçirən, vilayətlərə və İrəvana səfərlər edən, "Surb Anna" kilsəsinin həyətində görüşlərini davam etdirən arxiyepiskop B.Qalstanyan və onun hərəkatıdır. Paşinyan da müxalifətlə rəqabətə rəhbərlik edir: "Bizə bildirdilər ki, o, hətta XXXIII Yay Olimpiya Oyunlarının açılışında iştirak etmək üçün iyulun 26-da Parisə getməyi planlaşdırırdı, lakin sonda bu niyyətindən də imtina etməli olub. Qəbul edilmiş qərara uyğun olaraq, açılış mərasimində Ermənistanı hökumət üzvləri, o cümlədən baş nazir aparatının rəhbəri Arayik Arutyunyan və respublika prezidenti Vaaqn Xaçaturyan təmsil ediblər. Hayastan nümayəndə heyətini üzvləri Parisdə "Erməni evi"nin açılışında iştirak edib və Olimpiya yığma komandasının üzvləri ilə görüşüblər. Paşinyan isə həmin günlərdə Armavir bölgəsinə səfər edib və yaxın gələcəkdə Tavuşa, xüsusən də Kirantsa getməyi planlaşdırır".

Onu da qeyd edək ki, Paşinyanla yanaşı xarici işlər naziri Ararat Mirzoyan, parlamentin sədri Alen Simonyan və digər şəxslər də məzuniyyətdədirlər. Onların məzuniyyətlərini Avropada – Mirzoyanın cudluğunu tədricən dayandırır: "Təəssüf ki, Ermənistanda faktiki olaraq, suveren dövlət yoxdur. Formal olaraq mövcuddur, amma reallıqda mövcud deyil. Paşinyanın "hökuməti" mənə Filipp Petenin rəhbərlik etdiyi Vişi rejimini xatırladır. Vişi rejimi ilə Paşinyan rejimi arasında yalnız bir fərq var. Vişi rejimi sırf faşist Almaniyasına tabe idi, Paşinyan rejimi isə hamıya tabedir... Səhər Qərbə, günorta Şimala, gecə Türkiyəyə (?). Qalan hər şey demək olar ki, eynidir. Həm Petenin Fransasında, həm də Paşinyanın Ermənistanında əyləncə, konsert və qayğısız velosipedçilər qıtlığı yox idi. Bir tərəfdən milli dövlətçilik tənəzzülə uğrasa da, digər tərəfdən səhnədə çatışmazlıq mövcud deyildi. Lakin Fransa Şarl de Qoll ətrafında birləşərək, dövlətin mövcudluğu yolunu seçərək, antimilli və dövlət əleyhinə olan Vişi rejiminə dözmədi. Fransız sübut etdi ki, o, məğlub statusuna layiq deyil və məğlubların özünü fəth etdi".



Şotlandiyada, Simonyanın isə İspaniyada keçirmələri diqqəti cəlb edir. Paşinyan isə məzuniyyət müddətində velosiped sürməsi ilə gündəmə gəlib. Avqustun 10-da Paşinyan həyat yoldaşı Anna Akopyanla birlikdə bir festivalda iştirak etmək üçün velosipedlə Göyçədən İcevana gedib. Akopyan videonu özünün "Facebook" səhifəsində yayımlayıb və şərhini də əlavə edib: "Dağların arasından, dərələrin arasından..."

Paşinyan isə bildirib ki, duman olmasına baxmayaraq, velosipedlə yollarına davam ediblər. Onlar İcevanda Paşinyanın ata evində dayanıblar.

Müxalifət isə bütün bu məqamlardan hakimiyyətə qarşı, necə deyərlər, ittiham irəli sürmək üçün istifadə edir. Məsələn, müxalifətdə olan "Hayastan" blokunun deputatı, parlamentdə elə Tavuş vilayətini təmsil edən Qarnik Danielyan bildirib ki, Tavuşda əhali kənd təsərrüfatı ilə məşğul ola bilmədiyi üçün (?) ciddi şəkildə narahatdır. Bu da əhalinin xaricə axını baxımından demoqrafik problemlər yarada bilər. Guya, investorlar Kirantsa gedən yolun Azərbaycan tərəfindən hər an bağlana biləcəyindən narahat olduqları üçün etibarsızlıq potensial investisiyalara da təsir edirmiş: "Ermənistan ciddi problemlərlə üz-üzədir. Belə bir şəraitdə hakimiyyət nümayəndələri məzuniyyətə çıxır və velosiped sürürlər. Bu davranış insanı şoka salır".

"Qarabağ klanı"nın üzvü, Ermənistanın ikinci prezidenti Serj Sarkisyanın rəhbəri olduğu Respublika partiyasının rəhbərlərindən olan, parlamentin sabiq sədr müavini Eduard Şarmazanov isə Paşinyan iqtidarını II Dünya müharibəsi illərində nasist Almaniyasının işğal etdiyi Fransa ərazisində mövcud olmuş Vişi rejimi ilə müqayisə edib. O bildirib ki, 2018-2024-cü illərdə yürüdülən anti-dövlət siyasəti nəticəsində üçüncü Ermənistan Respublikası möv-

Şarmazanovun yazdıqlarına cavab verən Ermənistanın tanınmış jurnalisti Tevos Arşakyan qələmə aldığı "Tarixin zibilliyindən gələn səs" sərlövhəli məqalədə yazır ki, Paşinyan hökumətini Vişi rejimi ilə ancaq ağıldankəmlər müqayisə edə bilərlər: "Təəssüflər olsun ki, ölkəmizdə ənənəvi olaraq ya qəribə, ziddiyyətli açıqlamaları ilə ictimaiyyəti əyləndirən, ya da açıq-aşkar yalan çıxışları ilə bizi çaşdıran siyasətçilər də var. Bu ənənə uzun illərdir ki, həm ikinci prezident Robert Koçaryanın ətrafı, həm də Serj Sarkisyanın düşərgəsindən olan respublikaçılar tərəfindən inamla qorunub saxlanılır. Burada xüsusi yeri parlametin keçmiş sədr müavini Eduard Şarmazanov tutur. Bu təlxək bir neçə dəfə yazılarımızın "qəhrəmanına" çevrilib, lakin hər dəfə o, daha bir cəfəngiyat danışır, buna görə də biz onu amansızcasına "qamçılamalıyıq". Bu dəfə də belə oldu".

Müəllif yazır ki, Ermənistan məhz Koçaryan və Sarkisyanın dövründə öz suverenliyini sürətlə itirib və Rusiyanın zəif iradəli əlavəsinə çevrilib. Qeyd edilib ki, həmin dövrdə Ermənistanın nə müstəqil daxili, nə də xarici siyasəti var idi. Koçaryan və Sarkisyan hər şeyi Rusiyanın maraqlarına tabe edib. Hətta Ermənistan vilayətlərinə qubernatorlar da yalnız Moskva ilə məsləhətləşdikdən sonra təyin olunublar. Müəllif "Paşinyan bu gün kimdən asılıdır" sualını qoyur və özü də ona cavab verir. Qeyd edir ki, Nikol təkcə məyusedici məğlubiyyətdən sonra da 2021-ci ildə taleyini yenidən ona həvalə edən xalqından asılıdır. Xalq öz taleyini nə Sarkisyana, nə də Koçaryana etibar etdi. Bu mənada "erməni Peten" hesab edilməsi mümkün olan şəxs məhz Sarkisyandır.

***Səxavət HƏMİD***
***XQ***

KÖŞƏ

# ABŞ İrəvanı silahla "marşallaşdırır"

## Okeanın o tayından "Soros uşaqları"nı tək qoymurlar



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Ötən əsrin 60-cı illərində tez-tez bir sualı eşidərdik: "Siz də bizim marşallaşdırdıqlarımızdansınızmı?" Sonralar öyrəndik ki, həmin sualın ortaya atılmasında əsas məqsəd ABŞ-nin İkinci dünya müharibəsindən sonra Avropa ölkələrini əlinin altında saxlamaq üçün həyata keçirdiyi "yardım" planının məkrli olduğunu sübut etməkdir. Kreml həmin planın tam əleyhinə idi.**

Söhbət müharibə illərində ABŞ Prezidentinin strategiya və taktika məsələləri üzrə müşaviri və sonra bir neçə nazir vəzifələrində çalışmış Corc Marşallın işləyib hazırladığı ( icrasına 1948-ci il avqustun 3-də başlanılmışdı) "Marşall planı"ndan gedir. Həmin plana əsasən müharibədən sonrakı Avropaya ABŞ tərəfindən yardım edilməsi nəzərdə tutulurdu. Guya, müharibə nəticəsində dağılmış tikililərin bərpası, Avropada əhalinin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması, sənaye və bütövlükdə istehsalat müəssisələrinin yenilənməsi kimi humanitar məqsəd daşıyan həmin plan, əslində, Avropa üçün tələ idi. Əslində 13 milyard dollarlıq (həmin məbləğ qırxıncı illər üçün çox böyük vəsait idi) həmin yardım planının əsas məqsədi Avropada kommunizmin irəliləməsini əngəlləmək və "köhnə qitə"ni Moskvanın nəzarətindən çıxarmaq idi...

Son günlər mətbuatda rast gəldiyimiz "ABŞ hərbi təyyarələri İrəvana nə daşıyır?", "Ermənistan öz istiqamətini müəyyənləşdirib", "ABŞ-nin 2 hərbi təyyarəsi İrəvanda endi", "ABŞ hərbi təyyarəsi Zvarnots aeroportuna endi", "ABŞ hərbi təyyarələri Zəngəzura nə üçün gəlib?", "ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə Ermənistan Silahlı Qüvvələri üçün yeni nəsil silahlar gətirildi..." kimi xəbər başlıqlarını görəndə yada düşən ən uyğun tarixi fakt məhz "Marşall planı" olur. Yəni Ağ ev Cənubi Qafqazda yeni "Marşall planı"nı həyata keçirməyə çalışır.

Bunu hamı anlayır. Uşaq da başa düşür ki, Vaşinqton bu addımlarını Ermənistanı Moskvanın nəzarətindən çıxarmaq məqsədilə atır. Ancaq İrəvan rəhbərliyi özünü elə aparır ki, guya, İrəvana gələn silah dolu təyyarələr sırf yardım xarakteri daşıyır. Təbii ki, bunun mənfi nəticələri ilə o qədər də gec olmayan bir vaxtda üzləşəcəklər.

Fakt ondan ibarətdir ki, Cənubi Qafqaz son zamanlar olduqca çirkin oyunların həyata keçirildiyi meydana çevrilir. Son iyirmi ildə elə bir bayram və ya əlamətdar gün olmayıb ki, ABŞ Prezidenti (yəni bu dövrdəki bütün dövlət başçıları) Azərbaycana göndərdikləri təbrik məktublarında "Biz Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyirik", "Ağ ev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rolu alqışlayır", "Rəsmi Bakının sınanmış , etibarlı tərəfdaş olduğunu bildiririk", "Gələcəkdə də Azərbaycan rəhbərliyi ilə işləməyə hazırıq" kimi ifadələrdən istifadə edilməsin. Bütün bunlardan sonra ABŞ-nin ən müasir silahlarla dolu hərbi təyyarələri Ermənistana enir. Bunun riyakarlıqdan başqa adı varmı?

Başqa bir faktı yada salaq. ABŞ rəsmiləri dəfələrlə – həm Bakıda, həm Vaşinqtonda, həm də imkan olan hər yerdə deyiblər ki, biz Azərbaycanın beynəlxalq əhəmiyyətli nəqliyyat-logistika layihələrini alqşlayırıq və həmin layihələrin səmərəlilliyinə inanırıq. Deyirlər və ardınca da Zəngəzura silah göndərirlər. Üstündə də erməni hərbçilərinin libasını geyinmiş ABŞ əsgərləri. Bu, çox çirkin oyundur, serlər. Unutmayın, indi artıq XX əsrin 90-cı illəri deyil ki, üzdə bir söz deyib, arxada Azərbaycanın əleyhinə olan qərarlar qəbul edəsiniz. İndi Azərbaycan aldadılacaq ölkə deyil.

Başqa bir fakt. Okeanın o tayından səs gəlir ki, guya, Pentaqonun Ermənistana göndərdiyi silahların Azərbaycana qətiyyən dəxli yoxdur. Guya o silahlar Rusiya və İranla olan münasibətlərdə balans yaratmaq məqsədi daşıyır. Elə olanda biz ABŞ-dəki "dost"larımıza xatırlatmalıyıq ki, silah dolu təyyarənin endiyi Zəngəzur sizin "düşməniniz olan" Sovet dövlətinin saxta yolla ( yəni əhalinin razılığını almadan, referendumsuz) Azərbaycandan ayırıb Ermənistana verdiyi torpaqlardır. Biz indi sovet siyasətçilərinin xəyanəti nəticəsində bütöv Azərbaycandan ayrılmış Naxçıvanı quru yolları vasitəsilə öz ərazimizə birləşdirməyin bir addımlığında olanda siz həmin yola hərbi təyyarə endirirsiniz. Bu hansı dostluğa, tərəfdaşlığa, əməkdaşlığa sığan münasibətdir?

O ki qaldı, Ermənistan rəhbərliyinin düşünülməmiş addımlarına, fikrimizcə, onlar anlamalıdırlar ki, tez və ya gec, mütləq yaxın qonşuları ilə normal münasibətlər yaratmalı, əməkdaşlıq etməli və gələcək nəsillər naminə firavan Ermənistanın təməlini qoymalıdırlar. Mifik düşüncələrə, ABŞ-dən gələn "yardımlara", Parisin vədlərinə və bəzi Avropa qurumlarındakı korrupsiyalaşmış insanların planlarına uymaqda davam etsələr, nəinki firəvan Ermənistanı qura bilməyəcəklər, hətta, bugünkü Ermənistan dövlətinin mövcudluğu da təhlükə altına düşəcək.

Elə ABŞ, Fransa və digər bəzi dairələrdə də Ermənistanın həmin taleyini, qara günlərini gözləyirlər.

# Erməni irqçilik düşüncəsi gerizəkalıqdan qaynaqlanır

## "Armenizm"in "andranikizm", "tsexakronizm", "erməni fədaizmi", "erməni faşizmi" kimi "izmlər"i bəşəri təhlükə saçır

**(əvvəli qəzetin 7, 8, 9, 10 avqust saylarında)**

2010-cu ildə nəşr olunmuş, müəllifi Zarevand olan "Türklərlə bacara biləcəyikmi? "Ermənistan Respublikası 1918-20-ci illərdə " adlı kitabında türk düşmənçiliyi ən yüksək həddədir. Müəllif Bakıda Şərq Xalqları Qurultayında bir türkün iştirakını belə təsvir edir: " Zinovyevin rəhbərliyi ilə qurultayda iştirak edən həmin "yoldaş türk" (Ənvər paşa nəzərdə tutulur–Q.Ç.) ermənilərin başını kəsmişdir, erməni kəndlilərinin torpaqlarını əlindən almışdır, Aleksandropol qırğınını törətmişdir, sonra da bir utanmaz erməni qadınının başçılığı ilə Aleksandropol əhalisi bayraqlarla o türkün hüzuruna çıxmışdır. Xatırladım ki, Türk Ordusu Gümrüyə daxil olarkən erməni qadınları sevgisini ifadə edərək onların qarşısına çıxmışlar. "Xilaskar Türk Ordusuna eşq olsun!" şüarı qaldırılmışdır.

Müəllif bu kitabında türkləri erməniləri qırmaqda ittiham etmiş və bildirmişdir ki, "türk türkdür, istər qafqazlı olsun, istər istanbullu". Onların hamısı erməni xalqının düşmənidir. Kitabın əvvəlində "Sasunlu David" dastanından bir bənd verilmişdir.

**Kim yatmışsa dərhal oyansın,**
**Kim oyaqsa ayağa dursun,**
**Kim ayaqdasa silahlansın.**
**Gedirik düşmən üstünə...**

"Sasunlu David" dastanında düşmənin konkret hansı millət olduğu bilinməsə də, əslində, hədəf türkdür.

Amerikada yaşayan bir erməninin – Ruben Anqaladyanın "168 hours.am" saytında yayılan bir məqaləsi istər-istəməz diqqəti çəkir. Məqalənin adı belədir: "Bakı nefti bizimdir". Çox böyük iddiadır!

Ardına diqqət verin: "...1918-ci ildə qurulmağa başlayan və təhlükəsizlik strategiyasına ehtiyacı olmayan bir dövlətin yaradılması zamanı yol verilən kobud səhvləri göstərmək lazımdır. Rusiya və Avropa 1980-ci illərdən bəri Bakının geosiyasi rolundan xəbərdardır. Rusiya və Osmanlı imperiyalarının dağılması Zaqafqaziyada vəziyyəti daha da ağırlaşdırdı. Mühüm bir sual meydana çıxdı: Bakı nefti kimə aid olmalıdır? Burada –Zaqafqaziyada həm almanlar, həm ingilislər, həm də fransızlar peyda oldular. Hər kəsin bu strateji məhsulu ələ keçirmək planları var idi.



İnqilabdan əvvəl Rusiyada XX əsrin əvvəllərinə qədər Bakıda əsas neft oyunçuları Rusiya imperiyasının erməni neft istehsalçıları idi. "Türk Ermənistanı"ndan gələn vasitəçilər də var idi, xüsusən də, Galust Gülbenkyanın atası, dünya neft biznesinin memarı Sargis Gülbenkyan...

... Əsas oyunçular bizimkilər idi. Rəqabət Lianozovun, (Lianosyan) Mantaşovun (Mantaşyan) neft şirkətləri ilə Rotşildlər evi və Nobel qardaşları arasında gedirdi. Türklərin rəqabət qabiliyyətli neft maqnatları yox idi.

Erməniləri nəhəng maliyyə və insan resurslarını yatırdıqları Bakıdan kim uzaqlaşdırdı? Erməni burjuaziyası nəhəng potensialını qiymətləndirmədən niyə yanlış yola getdi?

Həqiqətən, Bakı, tarixi Ermənistanın bir hissəsi deyildi. Bəli, deyildi, amma ola bilərdi. Axı tarixən rus və ya azərbaycanlı (Qafqaz tatarları) bu sərvətin sahibi deyildi, dövləti olmadığı üçün belə bir millətin ona haqqı çatmırdı. Qafqaz tatarlarının elitası 15 sentyabr 1918-ci ildə Bakıya qüvvələr göndərdi və ermənilərin qırğını təşkil edildi. Tezliklə bolşeviklər Bakını ələ keçirdilər. Bir Moskva fabrikində çıxış edən Lenin, bütün Sovet tarixi dərsliklərində yazılanları hayqırdı: "Yaşasın Sovet Azərbaycanı!" və "Bakı nefti bizimdir."–dedi. O, əslində, nefti bizim, ermənilərin əlindən aldı".

Bunları oxuyarkən istər- istəməz düşünürsən: bir millət xəstə isə, onun sağalması prosesi uzun sürər. Həm də bir millət dövlətinin olmadığı bir başqa millət olaraq dünyagörüşündəki mühafizəkar və şovinist təfəkkürlə hərəkət edərsə… Bu yanaşmadan belə çıxır ki, Azərbaycan türkləri bu neftin sahibi deyildilər, Lenin də nefti ermənilərin əlindən almışdır. Bu tendensiya Ermənistanda həmin dövrdən bəhs edən bütün kitablarda keçir. Gülbenkyan, Mantaşov və digərləri Bakı neftinin sahibi imişlər, bizim xəbərimiz yoxmuş. Gülməli deyilmi?

Son zamanlar ermənilərin Bakı şəhərinə iddialarına da rast gəlinir. "Türk heç bir erməni üçün qəbuledilən xalq deyil, onlar sion-masonluq və bolşevik –türk yatağanına cavabımız bu olacaq: Biz erməni Bakaranlara aid olan Bakıya qədər gələcəyik". İrqçi ideoloq Balayan da deyir ki, biz İrəvana ona görə yiyələndik ki, buradan Bakıya daha yaxın olaq və nəhayət, Bakını ələ keçirək. Onun əsərlərində Bakı, bir qayda olaraq, "Bakurakert"adlandırılır.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# “Bir kəmər, bir yol” – Şərqdən Qərbə əsrin körpüsü

## *Çin 6 ayda bu marşruta 15,46 milyard dollar yatırıb*

**Çinin Ticarət Nazirliyinin açıqlamasına görə, bu ilin birinci yarısında bu ölkənin xaricə birbaşa qeyri-maliyyə investisiyaları illik müqayisədə 16,6 faiz artaraq 72,62 milyard dollara yüksəlib.**



Məlumata görə, Çinin ən böyük layihəsi olan “Bir kəmər, bir yol” boyunca yerləşən ölkələrə investisiyaların həcmi 9,2 faiz artaraq 15,46 milyard dollara çatıb.

Azərbaycan da hər zaman öz tərəfdaşları ilə birlikdə Orta Dəhlizin inkişafında fəal iştirakı ilə diqqət çəkib. Ölkəmiz Çin ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Hər iki dövlət “Bir kəmər, bir yol” layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb.

Prezident İlham Əliyev hələ ötən il iyunun 20-də Çinin “China Media Group” media korporasiyasına müsahibəsində müxbirin “Azərbaycanın “Bir kəmər, bir yol” kimi nəhəng infrastruktur layihəsini qısa müddətdə –307 günə icra etməsinə necə nail olub” sualına cavabında da bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı belə bir təşəbbüsün inkişafımızın sürətlənməsində mühüm rol oynadığını xatırladaraq Azərbaycanın bu cür nəhəg regional bağlantının mərkəzində dayanmasının önəmli üstünlüklərini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: “Xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq…”

Ötən müddətdə Prezident İlham Əliyevin vurğuladığı kimi, ilk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyuldu, qonşularla bağlantı körpülərinin qurulması diqqətdə saxlanıldı. Beləliklə, “Bir kəmər, bir yol” layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemi qısa zamanda gerçəkləşdi. Bununla da, sözügedən istiqamətdə sonrakı proseslərin sürətlə aparılmasına əlverişli zəmin yarandı.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında “İpək yolu iqtisadi kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Çin Xalq Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” kimi mühüm sənədlərin imzalanması da ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davamlı genişlənməsini və Çinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta Dəhliz) marağının artmasını şərtləndirib.

Bu gün Çin “İnternet ipək yolu”nun yaradılması, “İpək yolu” elektron ticarətinin inkişafı məqsədilə respublikamızla əməkdaşlığı dərinləşdirir. Buna uyğun olaraq hər iki dövlət nəqliyyat və tranzit sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsini daim diqqətdə saxlayır.

Çinin Avropa ilə ticarət əlaqələrini Azərbaycan üzərindən həyata keçirməyə çalışması təkcə ölkəmizin coğrafi mövqeyindən ibarət deyil. Azərbaycan 15 milyon ton yükaşırma imkanı olan beynəlxalq dəniz limanına və ildə 5 milyon ton yükdaşıma imkanı olan Bakı-Tbilisi–Qars (BTQ) dəmir yoluna malikdir. Bu infrastrukturlar Orta Dəhlizin əsasını təşkil edir. Bu il BTQ dəmir yolunda genişləndirmə işlərinin başa çatacağı nəzərdə tutulur. Dəmir yolunun Gürcüstandan keçən hissəsində genişləndirmə işləri yekunlaşandan sonra yolun yükdaşıma imkanının10 milyon tona çatacağı da gözlənilir.

Yeri gəlmişkən, bu ilin yanvar-iyul aylarında Orta Dəhliz ilə 2,5 milyon ton yük daşınıb. Qazaxıstan Nəqliyyat Nazirliyinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 62 faiz çoxdur. Nazirlik, eyni zamanda, bu il Orta Dəhliz vasitəsilə 4,2 milyon ton yük daşınacağını proqnozlaşdırır.

Xatırladaq ki, 2023-cü ildə Orta Dəhlizlə yükdaşımalar 2022-ci illə müqayisədə 65 faiz artaraq 2,7 milyon ton təşkil edib.

Qazaxıstan Orta Dəhliz marşrutu üzrə Çin ilə Azərbaycanın arasında yerləşən dövlətdir. Buna görə də Orta Dəhlizin formalaşmasında Qazaxıstan da mühüm rola malikdir. “KTZ Exspress” logistika şirkətinin icraçı direktoru Aybek Kapar bildirib ki, Qazaxıstan ərazisindən, ümumilikdə, 11 nəqliyyat dəhlizi keçir ki, bunların arasında ən əhəmiyyətlisi Çin ilə Avropanı birləşdirən Orta Dəhlizdir. Qazaxıstanın Çin ilə sərhəddə yerləşən Altınkol stansiyasından yük qatarı Orta Dəhlizlə Gürcüstanın dəniz limanlarına 15 gün ərzində çatdırılır. Bu, yüklərin tez çatdırılması ilə yanaşı, nəqliyyat xərcinin də azalması deməkdir.

Beynəlxalq ticarətdəki gərgin vəziyyət fonunda Çin-Avropa yük qatarları hər 2 istiqamət üzrə sabit, sürətli və sərfəli alternativ yaradıb. Bu kontekstdə Orta Dəhlizin əhəmiyyəti getdikcə daha qabarıq formada özünü göstərib. Məsələn, ötən il Orta Dəhliz üzrə yük daşımalarının həcmi 2 dəfə artaraq 3 milyon tona çatıb. Yaxın illərdə bu rəqəmin 10 milyon tona çatacağı proqnozlaşdırılıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin məlumatında da bu barədə ətraflı bəhs edilib, eyni zamanda, uzaq Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən multimodal Orta Dəhliz Azərbaycanın iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihələrdən biri kimi dəyərləndirilib.

Beləliklə, qtisadi və siyasi baxımdan mühüm önəm daşıyan Orta Dəhliz Çinin “Bir kəmər, bir yol” layihəsinin bir parçasıdır, eyni zamanda, tarixi İpək yolunun ən mühüm komponentlərindən biridir. Bu marşrutun sürətli inkişafı istiqamətində Azərbaycan mühüm addımlar atmaqdadır. Belə ki, Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu yöndə görülən ən mühüm işlərdəndir.

Bu məqamda onu da qeyd etmək yerinə düşər ki, son illər ərzində Orta Dəhlizdə yükdaşımaların artımında Azərbaycan önəmli rol oynayıb. Başqa sözlə, respublikamızda dəniz, dəmir yolu, avtomobil, hava nəqliyyatının inkişafı istiqamətində gerçəkləşdirilən genişmiqyaslı layihələr, habelə Şərqlə Qərb arasında ənənəvi ticarət və alternativ yollar üzərində diqqətçəkən geosiyasi, geoiqtisadi proseslər sözügedən marşrutun cəlbediciliyini artıraraq ölkəmizlə bərabər regionun da sürətli tərəqqisini şərtləndirib.

Bu istiqamətdə layihələr hazırda da uğurla reallaşdırılır. Məsələn, 2017-ci ildə istifadəyə verilən və Orta Dəhliz vasitəsilə daşımalarda xüsusi rol oynayan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılması üçün əlavə infrastruktur tədbirləri həyata keçirilir. Eyni zamanda, əsas dəmir və avtomobil yolları şəbəkələrinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Limanının ötürmə qabiliyyətini artırmaq məqsədi daşıyan tikinti işləri də planlaşdırılır.

Ümumiyyətlə, son 20 ildə ölkəmizdə bununla bağlı 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Azərbaycanın beynəlxalq ticarət bazarında rolunun gücləndirilməsi – yüksək gəlirli istehsal, ixrac fəaliyyəti və innovativ texnologiyalarla investorların cəlb edilməsinə, iqtisadiyyatın dayanıqlı inkişafına və yeni iş yerlərinin yaradılmasına töhfə vermək üçün Ələt qəsəbəsində azad iqtisadi zona yaradılıb.

# Biləsuvarda da günəş enerjisi stansiyası yaradılır



**Biləsuvarda Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən inşa ediləcək 445 MVt gücündə Günəş Elektrik Stansiyasının tikintisinə hazırlıq işlərinin vəziyyətinin qiymətləndirilməsi və gələcəkdə bu istiqamətdə görüləcək işlərin müzakirəsi ilə bağlı ilk görüş keçirilib.**

Görüş Biləsuvar Rayon İcra Hakimiyyətində “Masdar” şirkəti, WSP təşkilatı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) mütəxəssislərinin iştirakı ilə təşkil olunub. Günəş Elektrik Stansiyasının Biləsuvar rayonunun inzibati ərazisində dövlət mülkiyyətində olan 1454 hektar torpaq sahəsində tikilməsi nəzərdə tutulub.

Qeyd edək ki, adıçəkilən şirkət tərəfindən MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası–230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub: “Masdar” şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq GES və Abşeron-Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən üç yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Bu stansiyaların təməlinin qoyulması ölkə iqtisadiyyatının və enerji istehsalının şaxələndirilməsi, müstəqil enerji istehsalının artırılması, sosial inkişafın dəstəklənməsi və ətraf mühitin mühafizəsi baxımından əhəmiyyətli hadisə kimi diqqət çəkir. Təqribən 1 milyard dollara yaxın həcmdə investisiya hesabına reallaşdırılacaq layihələr ekspertlər tərəfindən respublikamızda iqtisadi sabitliyə və əlverişli investisiya mühitinə olan inamın göstəricisi kimi dəyərləndirilir.

Məlum olduğu kimi, artıq bir neçə ildir ki, ölkəmizdə bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində konkret layihələrin həyata keçirilməsinə başlanılıb. Bu baxımdan ölkəmizin əsas investorları sayılan Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” və Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətləri xüsusi fəallıqları ilə seçilir.

Hazırda “Masdar” şirkıtinin layihəsi olan Qaradağ Günəş Elektrik Stansiyası real fəaliyyət sahəsinə çevrilib. Ötən ilin oktyabr ayında istismara verilmiş 230 meqavatlıq stansiyadan təmiz enerji alınır. Bununla yanaşı, hazırda “ACWA Power” şirkəti tərəfindən 240 meqavatlıq “Xızı–Abşeron” Külək Elektrik Stansiyasının tikintisi davam edir. Bütün bunlarla yanaşı, ötən müddətdə imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsasən, Azərbaycan 2030-cu ilədək 5 min meqavata qədər günəş və külək enerjisi istehsal etməyi hədəfləyir.

Azərbaycanda yaradılmış əlverişli investisiya iqlimi, bütün sahələrə, o cümlədən bərpaolunan enerji sektoruna xarici sərmayələrin cəlbinə münbit şərait yaradır. Bu meqa layihə Azərbaycanın “yaşıl artım”a və ekoloji təhlükəsizliyin möhkəmləndirilməsinə verdiyi önəmin göstəricisidir. 2026-cı ildə istismara verilməsi planlaşdırılan həmin stansiyalar hesabına 2030-cu ilədək bərpaolunan enerji mənbələri üzrə qoyuluş gücünün, təqribən, 30 faizə çatdırılacağı gözlənilir. Mütəxəssislərin fikrincə, Azərbaycan enerji keçidinin hazırkı tempi ilə 2027-ci ilə qədər bu göstəricini 33 faizə çatdıra bilər. Sözügedən meqa layihələr qlobal iqlim hədəflərinə, həmçinin ölkəmizin 2050-ci ilədək karbon emissiyalarının miqdarının 40 faiz azaldılmasına dair hədəfinə nail olunması istiqamətində atılmış mühüm addımlardan biridir.

Ümumiyyətlə, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, hesablamalara əsasən, respublikamızın “yaşıl enerji” mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmindədir.

Azərbaycan enerji mənbələrini şaxələndirmək istiqamətində mühüm addımlar atır. 2020-ci ildə Səudiyyə Ərəbistanın “ACWA Power” və BƏƏ-nin “Masdar” şirkətləri ilə 240 meqavat gücündə külək və 230 meqavat gücündə günəş enerjisi üzrə pilot layihələrlə başlayan “yaşıl enerji” tərəfdaşlığının miqyası qısa müddətdə genişlənib. Qısa bir vaxtda “Masdar”, “ACWA Power”, BP, “Fortescue Future Industries”, “China Gezhouba Group Overseas Investment”, “Total Energies”, “Nobel Energy” və “A-Z Czech Engineering” şirkətləri ilə ümumi gücü 28 qiqavatdan çox layihələrə dair əməkdaşlıq sənədləri imzalanıb. Bütün bunlar dövlətimizin başçısının “yaşıl enerji” strategiyasına beynəlxalq marağın, ölkəmizin “yaşıl gələcəy”inə olan inamın göstəricisidir.

Xatırladaq ki, “Masdar” bərpaolunan enerjinin istehsalı, külək və günəş elektrik stansiyalarının, geotermal, tullantıdan-enerjiyə və “yaşıl” hidrogen layihələrinin idarə edilməsi sahələrində fəaliyyət göstərən BƏƏ-nin nüfuzlu şirkətidir. Qurum son illər ərzində təmiz enerji tutumunu və CO2-nin yerdəyişməsini, təxminən, iki dəfə artırıb. Bununla da, 2030-cu ilə qədər dünyanın ən böyük bərpaolunan enerji şirkətlərindən biri olmaq ambisiyasını yerinə yetirmək yolunda uğurlu addımlar atıb.



# 7 ayda 17 milyon ton neft, 30 milyard kubmetr qaz

**Energetika Nazirliyinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında Azərbaycanda, təxminən, 16,9 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Bunun 9,7 milyon tonu “Azəri-Çıraq-Günəşli” yataqlarının, 2,5 milyon tonu (kondensat) “Şahdəniz” yatağının, 0,3 milyon tonu (kondensat) “Abşeron” yatağının payına düşüb. Dövlət Neft Şirkəti (SOCAR) üzrə neft (kondensatla birlikdə) hasilatı 4,4 milyon ton təşkil edib.**

Hesabat dövründə, təxminən, 14,1 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 12,2 milyon tonu konsorsiumun, 1,9 milyon tonu isə SOCAR-ın payına düşüb. 2024-cü ilin iyul ayında gündəlik neft (kondensatla birlikdə) hasilatı 80 min 589 ton olub. Bunun 65 min 681 tonunu xam neft, 14 min 908 tonunu kondensat təşkil edib.

Yanvar–iyul aylarında ölkədə ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 milyard kubmetr və yaxud 4,6 faiz çox, təxminən, 29,5 milyard kubmetr təbii qaz hasil edilib. Bunun 7,7 milyard kubmetri “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarından, 16,5 milyard kubmetri “Şahdəniz” yatağından 0,9 milyard kubmetri “Abşeron” yatağından, 4,4 milyard kubmetri isə SOCAR üzrə hasil olunub.

Hesabat dövründə xaricə qaz satışı, təxminən, 14,7 milyard kubmetr təşkil edib ki, bu da 1 il əvvələ nisbətən 5,7 faiz çoxdur. 7 ay ərzində Türkiyəyə 5,8 milyard kubmetr, Avropaya 7,5 milyard kubmetr, Gürcüstana isə 1,4 milyard kubmetr qaz satılıb. Qeyd edək ki, Türkiyəyə TANAP-la bu müddətdə 3,3 milyard kubmetr qaz nəql olunub.

AÇG və “Şahdəniz” yataqları istismara veriləndən indiyədək 641,4 milyon ton neft (kondensatla birlikdə), 449,5 milyard kubmetr qaz hasil edilib. AÇG-dən 594,4 milyon ton neft, 224 milyard kubmetr qaz hasil olunub. “Şahdəniz”dən isə 225,5 milyard kubmetr qaz, 47 milyon tona yaxın kondensat çıxarılıb. Bu yataqlardan indiyə kimi, təqribən, 639,5 milyon ton neft (kondensatla birlikdə), təxminən, 160,7 milyard kubmetrə yaxın qaz ixraca yönəldilib.

# Ağdam Sənaye Parkında yeni istehsal sahəsi

**“Xtra Plast” MMC-yə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti statusu verilib.**

Agentlikdən aldığımız məlumata əsasən, müəssisədə plastik tara istehsalı həyata keçiriləcək. İnvestisiya dəyəri 3,8 milyon manat olan müəssisədə 20 nəfər işlə təmin ediləcək. İstehsal olunan məhsullar daxili bazarda satılacaq.



*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# "Yaşıl dünya" naminə həmrəylik



## Azərbaycanın "yaşıl enerji" çağırışları



**Energetika nazirinin müavini, COP29 üzrə baş icraçı direktor Elnur Soltanov jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkəmizin "yaşıl enerji" sahəsində həyata keçirdiyi layihələrə verilən mükafat, respublikamızın bu sahədəki fəaliyyətini bütün dünyaya göstərmək üçün bir fürsətdir.**

Elnur Soltanov daha sonra qeyd edib ki, bərpaolunan enerji potensialı baxımından çox zəngin olan Azərbaycan neft və qaz sahələrində region, eləcə də dünya üçün təhlükəsizlik, habelə iqtisadi mənada dəyər mənbəyinə çevrilib. Neft və qaz dəhlizlərini yaradan və bununla beynəlxalq aləmə uğur nümayiş etdirən respublikamız "yaşıl enerji"nin reallaşmasında da dünyada lider mövqedə olan ölkələr sırasında yer alıb.

Energetika nazirinin müavini sonda vurğulayıb ki, COP29 çərçivəsində gündəlikdə duran əsas istiqamətlərdən biri "yaşıl enerji" dəhlizi məsələsidir. COP hər zaman iqlim danışıqları prosesidir və bu proses hazırda da uğurla həyata keçirilir.

Respublikamızda reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, hazırda ölkəmizdə "yaşıl enerji" növləri uğurla gerçəkləşdirilir və "yaşıl enerji"nin dünya bazarlarına nəqli enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlanılır.

Təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində də davamlı layihələr gerçəkləşdirilir. Azərbaycanın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyası həcminin 40 faizə qədər azaldılmasının, habelə düşməndən təmizlənən ərazilərimizdə "təmiz 0" emissiya zonasının yaradılmasının şərti hədəf kimi götürülməsi də bunun bariz ifadəsidir.

Son illər ölkəmizdə sözügedən sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. Məsələn, MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası – 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub: "Masdar" şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq GES və Abşeron-Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən 3 yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Respublikada "yaşıl enerji"nin reallaşdırılması ilə bağlı qısa müddətdə normativ hüquqi bazanın formalaşdırılması ilə bağlı da xeyli iş görülüb. "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanundan irəli gələn 4 alt qanunvericilik aktı təsdiqlənib. "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası" əsasında bağlanan müqavilələr və keçiriləcək hərraclarla bağlı hüquqi çərçivə müəyyənləşdirilib. Bununla da investorların səmərəli fəaliyyətinə əlverişli zəmin yaradılıb. Eyni zamanda, fəal istehlakçıların dəstəklənməsi və "yaşıl sertifikatlar"la bağlı qaydalar təsdiqlənib. Bütün bunlarla bərabər, bərpaolunan enerji mənbələri üzrə informasiya sistemi formalaşdırılaraq artıq istifadəyə verilib.

Hazırda ölkəmizdə "yaşıl enerji"dən istifadənin genişləndirilməsi məqsədilə Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq layihələri, o cümlədən dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerji ixracı planları, "yaşıl enerji"nin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, enerji effektivliyi, "yaşıl hidrogen", elektromobillik və digər məsələlər haqqında danışıqlar aparılır. Ümumiyyətlə, "yaşıl" inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsi məsələsi daim diqqətdə saxlanılır.

Son vaxtlar respublikamızda "yaşıl enerji"nin ixrac potensialının gücləndirilməsi ilə bağlı da ciddi layihələr icra edilib. Məsələn, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan dördtərəfli müqavilənin gerçəkləşdirilməsi ilə əlaqədar genişmiqyaslı işlər görülüb, keçirilən tenderin nəticəsində artıq qalib şirkətlə müqavilə imzalanıb. Bu müqavilədə Azərbaycan və Rumıniya arasında "yaşıl enerji"nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi nəzərdə tutulub. Sənədə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpaolunan enerji mənbələrində istehsal olunan "yaşıl enerji"nin Azərbaycandan Gürcüstana, oradan kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, daha sonra isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da "Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi"nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul edilib.

***XQ***

**Əsas enerji mənbələrindən biri sayılan hidrogen iqlim böhranı ilə səmərəli mübarizədə və davamlı inkişafı dəstəkləməkdə əhəmiyyətli rol oynayır. Uzun bir dövrdə güclü transformasiyaya uğrayan hidrogen enerjisi bu gün "yaşıl gələcəy"ə gedən yolda daha çox diqqət çəkir, karbonsuzlaşma prosesində mühüm önəm daşıyır, davamlı inkişafın əsas komponentləri sırasında yer alır.**

## Karbohidrogen, yoxsa karbonsuz hidrogen?




Bu barədə Azərbaycan Pedaqoji Universitetinin kafedra müdiri, kimya elmləri doktoru, professor Əli Zalov söhbət zamanı dedi:

– Hidrogen ($H_2$) digər enerji mənbələri ilə müqayisədə ekoloji cəhətdən ən təmiz kimyəvi enerji daşıyıcısı kimi seçilir. Yandırıldıqda yalnız su buxarı əmələ gəlir və istilik ayrılır. Proses zamanı mədən yanacaqları ilə bağlı çirkləndiricilər və "istixana qazları" müşahidə edilmir. Buna görə də hidrogenin potensialı iqlim dəyişikliyi ilə mübarizə tədbirlərində yüksək qiymətləndirilir. Üstəlik, hidrogen enerjisinin günəş və külək kimi bərpaolunan enerji sistemlərinə inteqrasiyası elektrik şəbəkəsini sabitləşdirərək onun etibarlılığını və dayanıqlığını artırır. Bundan əlavə, hidrogen istehsalında xammal kimi sudan da istifadə edilir.

Hidrogenin universallığı müxtəlif sektorlarda, o cümlədən nəqliyyat, sənaye və enerji sahələrində onun tətbiqini asanlaşdırır. Nəqliyyatda daxili yanma mühərriklərinə alternativ olaraq, sıfır emissiyanı təmin edir. Hidrogen qazı daha çox kimya sənayesi, eləcə də xam neft və metanol emalı, gübrə istehsalında ammonyak sintezi, həmçinin yanacaq kimi istifadə olunur. Yandırıldıqda 1000°C-dən çox istilik yarada bilir. Onun bu üstünlüyündən elektrik enerjisi istehsalında geniş istifadə edilir.

Hidrogen enerjisi bu gün "yaşıl gələcəy"ə gedən yolda üstünlüyünü saxlayır. Bu, karbonsuzlaşmaya doğru ən böyük addımlardan biri kimi dəyərləndirilir və gələcəyin enerji təchizatı ssenariləri arasında ölkələrin davamlı inkişaf layihələrinin əsas komponentləri sırasında yer alır.

Adıçəkilən enerji daşıyıcısı su, biokütlə və digər yanacaq növləri daxil olmaqla, müxtəlif mənbələrdən əldə edilir. Hazırda isə hidrogen istehsalında daha çox təbii qaz işlədilir. Metandan hidrogenin alınması prosesində karbontutma texnologiyalarının (CCUS) tətbiq edilməsi ilə CO2 emissiyalarının atmosferə atılmasının qarşısı alınır.

Təbii qaz yataqlarından da hidrogen ("mavi" hidrogen) əldə etmək mümkündür. Yeni üsul hidrogeni bir neçə mərhələdə istehsal etməyə imkan verir. Əvvəlcə quyuya su buxarı və katalizator, sonra isə hava, yaxud təmiz oksigen vurulur, bunun sayəsində təbii qaz birbaşa lay daxilində alovlanır. Yanma prosesi zamanı təbii qaz dəm qazı və hidrogen qarışığına çevrilir: karbonmonoksid (CO), yəni dəm qazı əmələ gəlir ki, bu da təbəqənin daxilində qalır. Hidrogen isə quyudan digər reaksiya məhsullarının keçməsinə imkan verməyən membrandan istifadə etməklə çıxarılır. Nəticədə, hidrogen istisna olmaqla, yaranan bütün qazlar – karbonmonoksid və karbon qazı – yerin altında "konservləşdirilmiş" qalır ki, bu da karbon izini minimuma endirməyə imkan verir.

Hidrogen bərpaolunan enerji mənbələrindən alınan elektrik enerjisindən (külək və günəş) istifadə edilərək suyun elektroliz yolu ilə parçalanmasından da əldə olunur. Ekoloji cəhətdən təmiz olan və "yaşıl hidrogen" adlandırılan bu enerji mənbəyi digər növlərlə müqayisədə baha başa gəlir. Bu, bərpaolunan enerjinin və elektroliz qurğularının yüksək qiyməti ilə əlaqədardır. Ümidverici məqam isə günəş və külək elektrostansiyalarından alınan enerjinin qiymətinin 2040-cı ilə qədər 40-50 faiz ucuzlaşması perspektividir. Bu, ilk növbədə, yeni fotoelektrik, elektrotexniki və konstruksion materiallarının yaradılması ilə bağlı olacaq. Digər tərəfdən, gələcəkdə elektrolizatorların dəyərinin azalması "yaşıl hidrogen"in istehsal xərclərinin aşağı düşməsinə təsir göstərəcək.

Hazırda hidrogen metanın su buxarı ilə reaksiyasından alınır. Bu üsul geniş yayılmasına baxmayaraq, hidrogenin ekoloji faydalarını pozur, karbon qazı emissiyaları yaradır.

"Qəhvəyi hidrogen" isə kömürün qazlaşdırılması yolu ilə əldə edilir və istehsal prosesi zamanı karbon dioksid sərbəst şəkildə atmosferə buraxılır. Buna bəzən "qara hidrogen" də deyilir. Gələcək perspektivi yoxdur.

Perspektivli proses kimi hazırda təbii qazın hidrogenə və karbona pirolizi nəzərdən keçirilir. Bu proses yüksək temperaturda (1100-1200ºC) gedir, lakin katalizatordan istifadə etməklə temperaturu aşağı salmaq mümkündür. Problem davamlı katalizatorun seçilməsi, prosesin enerji effektivliyinin aşağı olması (təbii qaz enerjisinin, təxminən, yarısının karbonun ayrılması hesabına azalması), üstün cəhəti isə "karbon izindən" azad olan hidrogenin alınmasıdır.

Son vaxtlar Azərbaycanda da təbii qazı və kömürü əvəz edə biləcək və onlarla rəqabət aparmaqda ən perspektivli enerji mənbəyi olan hidrogenə maraq artıb. Artıq hidrogen istehsalı və istifadəsi ilə bağlı araşdırmaların aparılması və təkliflərin hazırlanması məqsədilə Energetika Nazirliyinin həmsədrliyi ilə aidiyyəti qurumların nümayəndələrindən ibarət İşçi qrup yaradılıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## COP29 könüllülərinin festivalı

**Azərbaycanın ən böyük gənclər festivalı olan "Yay Fest"in növbəti həftəsi COP29 könüllüləri üçün təşkil olunub.**



COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumata görə, həftə ərzində könüllülər COP prosesləri, ətraf mühitin mühafizəsi və iqlim problemlərinin həllində gənclərin rolu kimi mövzuları əhatə etməklə müxtəlif "yaşıl" təşəbbüslər və interaktiv fəaliyyətlərdə iştirak ediblər.

Düşərgədə, ümumilikdə, 230-a yaxın COP29 könüllüsü iştirak edib. Şamaxıda təbiət qoynunda təşkil edilən tədbirdə könüllülər COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisləri tərəfindən keçirilən interaktiv təlimlərdə iştirak edib, eləcə də müxtəlif praktiki məşğələlərdə təcrübələrini genişləndiriblər.

Düşərgənin zəngin təlim proqramı gənclərin iqlim problemlərinə həssaslığının artırılmasına və ekoloji və COP prosesi barədə maarifləndirilməsinə yönəlib, eləcə də dayanıqlı davranışlarının formalaşmasını əhatə edib.

Düşərgə ərzində IDEA İctimai Birliyi tərəfindən təşkil olunan "Təbiət naminə" interaktiv sessiyada Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev gənclərin ətraf mühitə məsuliyyətli yanaşmasının kollektiv səylərə töhfəsindən bəhs edib.

Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və cari ildə ölkəmizin COP29 kimi mötəbər tədbirə evsahibliyi etməsi nəzərə alınaraq, "Yay Fest"in builki düşərgələrində ekologiya, iqlim dəyişmələri, ətraf mühitin mühafizəsi və bu problemlərin aradan qaldırılmasında gənclərin rolu, o cümlədən COP29 kimi mövzulara xüsusi üstünlük verilir.

"Birlikdə daha yaşıl gələcəyə!" şüarı altında təşkil olunan builki festival Azərbaycan Gənclər Fondunun dəstəyi, IDEA İctimai Birliyi, COP29 Sədrliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "CAVAN" Gənclər Hərəkatı İctimai Birliyi və "Gənc Könüllülər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilir.

8 düşərgədən ibarət olan və 2 ay davam edəcək bu festivalda, ümumilikdə, 2 mindən çox gənc iştirak edəcək.

***XQ***

## Yeni ekologiya standartları

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən beynəlxalq standartlar əsasında "Ətraf mühitlə bağlı məlumatları validasiya və verifikasiya edən orqanlar üçün ümumi prinsiplər və tələblər" (AZS ISO 14065:2024) və "Ətraf mühitlə bağlı məlumatlar – Ətraf mühitlə bağlı məlumatların validasiya və verifikasiyasını edən komandaların səriştəliliyinə dair tələblər" (AZS ISO 14066:2024) yeni dövlət standartları qəbul edilib.**

Azərbaycan Standartlaşdırma İnstitutunun bununla bağlı yaydığı məlumatda bildirilir ki, dövlət standartları AZSTAND ilə Almaniyanın Metrologiya İnstitutunun ("Physikalisch-Technische Bundesanstalt" – PTB) "Keyfiyyət infrastrukturu üçün yaşıl transformasiya" adlı birgə layihəsi çərçivəsində işlənib hazırlanıb. Bu dövlət standartlarının tətbiqində məqsəd isə validasiya və verifikasiya komandalarının, eləcə də müstəqil rəy verənlərin səriştəliliyi ilə bağlı tələbləri, həmçinin ətraf mühitlə bağlı məlumatlar haqqında bəyanatların validasiya və verifikasiyasını reallaşdıran orqanlar üçün prinsip və tələbləri müəyyənləşdirməkdir.

Sözügedən dövlət standartları "Ekologiya" standartlaşdırma üzrə Texniki Komitə (AZSTAND/TK 09) tərəfindən müzakirəyə çıxarılıb və institut tərəfindən qəbul edilərək standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

***XQ***



**Dünyadan gələn sorağımız**

# Texasda tibb uzmanlığı qazanan soydaşımız

**Dövlət müstəqilliyinin açdığı qapılar, yaratdığı imkanlar gənc soydaşlarımızın dünyanın Türkiyə, ABŞ, Almaniya, İtaliya, Böyük Britaniya, Kanada, Fransa, İspaniya, İsveç, İsveçrə, Niderland, Avstriya, Finlandiya, Belçika kimi ölkələrinin məşhur ali məktəblərində nüfuzlu ixtisaslar üzrə təhsil almalarını gerçəkləşdirib. Ötən illərdə minlərlə azərbaycanlı belə xarici universitetləri uğurla bitirib, ölkəmizə yüksək ixtisaslı, modern dünyagörüşlü mütəxəssislər kimi qayıdıb.**

Bugünlərdə redaksiyamızın qonağı olan ABŞ-ın Ostin şəhərindəki Texas Universetində tibb uzmanlığı təhsili alan Gülçin İsayeva ilə söhbətdə bir daha əmin olduq ki, xaricdə ixtisas təhsili almaq əlavə xeyli çətinlik və zəhmət bahasına başa gəlsə də, ölkəmizin çağdaş dünyaya inteqrasiyası, qlobal tərəqqi ilə ayaqlaşması üçün bir o qədər önəmli və zəruridir.

Uşaqlıq illərindən həkimliyə marağı olan Gülçin orta məktəbi bitirəndən sonra xaricdə təhsil almaq üçün tələb edilən imtahanları uğurla verib dünyanın ən qabaqcıl ali məktəblərindən olan Boston Universitetinin tələbəsi olur. Genetika və hüceyrə biologiyası ixtisasına yiyələnən gənc bu məşhur universiteti fərqlənmə diplomu ilə qurtaran ilk azərbaycanlıdır.

Amerikada həkimlik sənəti seçənlərə qoyulan çox ciddi sınaq və imtahanlardan sonra Gülçin təhsilini Los-Ancelesdəki Kaliforniya Universitetində davam etdirib. Hazırda Texas Universitetində uzmanlıq təhsili alan qızın davamlı uğurları Azərbaycan gəncliyinin dünyanın o qədər də böyük olmadığını sübut etməyə qadir olduğunun parlaq göstəricisidir. Gülçin İsayevanın oxuduğu ali təhsil həm də ABŞ-nin ən böyük ştatı olan Texasın iri elmi-tədqiqat mərkəzidir. Belə bir elm-təhsil ocağında soydaşımızın da uzmanlıq ixtisası qazanması olduqca qürurvericidir. Elə bu qənaətlə də qonağımızdan soruşduq:

**– Niyə daha yaxın Türkiyə, Almaniya, İtaliya ... yox, uzaq Amerika?**

– Bu, əslində, məndən çox ailəmizlə bağlı oldu. Müstəqilliyimiz bizim ailəyə də Amerikaya köçmək fürsəti yaratdı. Yaşadığımız Boston şəhərində universitet tələbəsi oldum.100-dən çox ölkədən gəlmiş tələbənin oxuduğu bu məktəb dünyanın da aparıcı ali təhsil ocaqlarından biridir. Boston Universitetinin 285 mindən çox məzunu dünyanın bir çox ölkəsində prezident, baş nazir kimi ən mötəbər və rəhbər vəzifələrdə çalışır. Ali məktəbin müəllim-professorları arasında 3 Nobel mükafatı laureatı və ən məşhur mükafatlara layiq görülmüş alimlər yer alırlar.

**– Xaricdə təhsil almağın fərqliliyi, yaxud özəlliyi nədir?**

– Ən önəmlisi heç bir ayri-seçkilik yoxdur. Professor və müəllimlərin münasibətində tələbələrə fərqli yanaşma yoxdur. Amerikanın üstün təhsil siyasəti və modeli var. Bu sistem tələbələrin inkişafı üçün çox şey edir. 2 imkan isə daha önəmlidir: birincisi, oxuduqlarını təcrübədən keçirmək, ikincisi, əhatəli və güvəncli dialoq mühiti. Müəllim və professorlarla, təcürbə rəhbərləri ilə açıq fikir mübadiləsi aparmaq olur.

**– Həkim ixtisası qazanmaq o qədər də asan başa gəlmir –xüsusən də Amerikada. Necə oldu ki, səhiyyədə ən yüksək tələblər ölkəsində bu ixtisası seçdiniz?**

– Atam hüquqşünas, anam isə bioloqdur, hər ikisi Bakı Dövlət Universitetinin məzunudur. Həkim olmağı uşaqlıqdan arzu edirdim, çətinliyini də bilirdim. Bəli, Amerikada təbabətin tələbləri başqa ölkələrdən daha ağırdır. İlk olaraq insanlarla rəftarı öyrənməlisən, tibb təhsilinə başlamazdan könüllü kimi kimsəsiz uşaq və qocalar evlərində çalışmalı, onlara qulluq etməlisən. Sınaqlardan çıxıb təhsilə davam edirsən. Mənim həkimliyə olan həvəsim bu çətinliyi dəf etməyə imkan verdi. Azərbaycanda yaşadığım və orta təhsil illərində həkimlik sənətinə olan hörməti dərindən hiss etməyim köməyimə gəldi. Yəni məqsədimdən dönmədim. Eyni zamanda, yaxşı həkimə ciddi ehtiyac olduğunu da yaqin etmişəm.

**– Bostondan Kaliforniyaya getməyiniz necə oldu?**

– Bostondan sonra tibb təhsilimi davam etdirmək üçün Los-Ancelesdəki Kaliforniya Universitetinə qəbul olundum. Amerikada təhsil xeyli dərəcədə fərqlidir, yüksək tibb təhsil almaq üçün mərhələli bir yol keçməlisən. Mən ən yüksək balla (4 ballı sistemə görə 3,92) 4 illik bakalavr və magistr təhsilimi 2023-cü ildə başa vurdum.

Onu da deyim ki, arada 2 il də işlədim. Kaliforniya Universitetinin tibb fakultəsində oxuduğum zaman 2-ci və 3-cü kurslardan sonra 2 dövlət imtahanı verdim. Bu imtahalar – ABŞ-də tibbi lisenziyalaşdırma imtahanı 1 və 2-ci dərəcəli tibb doktoru kimi çalışmaq istəyən hər kəsin keçdiyi 3 mərhələli imtahandır. 3-cü mərhələ isə 2025 ilində olacaq. Bu imtahanlarda ən yüksək bal 275-dir. Mən 274 və 269 bal aldım. Bu uğurum mənə ümumi cərrahiyyə ixtisası üzrə rezidentura şansı verdi.



Kaliforniyadakı təhsidən sonra uzmanlıq ixtisası olaraq ümumi cərrahiyyəni seçdim və Texas Universitetini qazandım. Uzmanlıq təhsilimin birinci ilini başa vurmuşam, cərrahiyyə ixtisası üzrə rezidentura 5 ildir.

**– Tələblər yüksək, bilik yüksək, bəs təhsil haqqı?**

– Təhsil haqqları da yüksəkdir. Bir də Amerikada ən yüksək bal toplasan belə hüquq və tibb təhsilinin ödənişləri dövlət tərəfindən qarşılanmır. Məcbursan özün ödəyəsən. Amma yaradılan şərait imkan verir ki, hər bir tələbə təhsil haqqını özü ödəyə bilsin. Bunun üçün dövlət krediti var.

**– Bu imkandan bütün tələbələr istifadə edə bilirmi?**

– Mən Amerika vətəndaşı olduğum üçün kredit almağım mümkün oldu. Bakalavr və magistr dövründə bir az çətin idi. İndi isə uzmanlıq oxuduğumdan işləyə də bilirəm və bu, maddi imkanlarımı xeyli artırıb. Təhsil illərində aldığım borcu işləyəndə qaytaracağam. Amma başqa bir üstünlük də var: 10 il dövlət tabeliyində olan müəssisədə çalışacaqsansa, götürdüyün borcu dövlət sənə bağışlayır və buraya 5 illik uzmanlıq təhsili də daxildir.

İndi mən uzmanlığın ilk pilləsində olduğumdan maaşım yüksək deyil, ancaq yemək-içmək, kirayə haqqı kimi cari xərcləri ödəməyə imkan verir. Amerikada həyat çox bahalıdır. Amma sonrakı mərhələdə verilən maaşlar yüksəkdir.

**– Qayıdaq Vətənə – Amerikadan Bakı necə görünür?**

– Bu sual ən yaralı yerimdir. Bakı üçün çox darıxıram. Böyüyüb başa çatdığın, dostlarının, qohumlarının və özünün də daha rahat olduğun bir diyara ülvi bir bağlılıq var bunun köklərində. Biz azərbaycanlılar digər millətlərdən fərqliyik, torpağa, Vətənə daha çox bağlıyıq. Azərbaycana qayıdıb Bakıda çalışmaq niyyətim də var. Xaricdə təhsil alan tələbələr həm də öz ölkələrinin səfiri də hesab oluna bilərlər. Onlar qərib diyarda öz vətənlərini və xalqlarını təmsil edirlər.

**– Deyirlər, kənardan gələnlər dəyişiklikləri daha yaxşı görürlər...**

– Doğrudur, mən də çox şeyin dəyişdiyini dərhal və əhatəli görüb-duydum. Son illərdə olan müsbət dəyişikliklər Azərbaycanda həyata yüksək əhval gətirib. Hər şeydən əvvəl, biz indi qalib ölkənin övladlarıyıq. Bu hər bir azərbaycanlıya qürür verən hadisədir. Elm, təhsil sahəsində uğurlar, xüsusən də səhiyyədə görülən işlər, xəstəxanaların yenilşəməsini, tibbi təchizatı görmək çox xoş oldu.

**– Dost-tanışlara, həm də oxucularımıza nə demək istərsən?**

– Azərbaycan dünyanın ən gözəl məkanıdır. Hərdən giley-güzarlar da eşidilir, ola bilsin ki, nədənsə narazı olanlar da var. Amma uzaqlardan baxanda, bir də o "tərifli yerlərin" həyat tərzini görəndə Vətənə, xalqa, onun adət və ənənələrinə daha çox bağlanırsan. Bir vaxtlar xəritədə Azərbaycanın yerini bilməyənlər indi onun haqqında çox şey bilmək istəyirlər. İndi Azərbaycanı dünya tanıyır. Ətrafımızda olanların sualları bu maraqdan doğur. Müharibədən, tarixi qələbədən sonrakı informasiya bolluğu bu marağı daha da artırıb. Adamlar mədəniyyətimizdən, adət-ənənələrimizdən, sosial şəbəkələrdən aldıqları məlumatlardan məftunluqla söz açırlar.

**P.S.** Yazını hazırlayarkən maraqlı bir faktla da üzləşdim: Gülçin İsayeva Türkiyənin Bilkənt Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru, Əmirulla Məmmədovun nəvəsidir. O, ABŞ-ın elm-təhsil mərkəzlərində mühazirələr oxuyub. Əmirulla müəllim Yaponiyada və İtaliyada da çalışıb. Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, əməkdar elm xadimidir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif olunub. Türkiyə - Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun Qəyumlar Şurasının üzvü, bu ölkədə yaşayan Azərbaycanlı Elm Adamları Dərnəyinin rəhbəridir. Atalar yaxşı deyib: ot kökü üstə bitər.

*Namiq QƏDİMOĞLU*
*XQ*

**Günün problemi**

# Vətəndaş cəmiyyəti erkən nikahları hədəfə alıb

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Yeni həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyi uşaq evliliyi və onun fəsadlarından bəhs edən, eyni zamanda bu istiqamətdə yeniyetmə qızlar və onların valideynləri arasında maarifləndirmə işinin təşkili ilə bağlı layihənin icrasını davam etdirir. İctimai birliyin sədri Nailə İsmayılova bu istiqamətdə gördükləri işlərdən söz açdı:**



– Həyata keçirdiyimiz layihə "Erkən nikahın fəsadları" adlanır. Bu mövzu bizim üçün yeni deyil. 7–8 ildir ki, erkən nikah, məişət zorakılığı, insan alveri, uşaq hüquqlarının qorunması ilə bağlı layihələr icra etmişik. Bunlar bir-birilə zəncirvari əlaqədə olan ailə münasibətlərinin gündəmdə olan, ağrılı məsələləridir. Erkən nikah deyəndə məişət zorakılığını, həm də, bu amillə bağlı insan alverini unutmamalıyıq.

Son aylar erkən nikahla bağlı apardığımız maarifləndirici layihələrlə əlaqədar bölgələrdə oluruq. Sənədi 3 ay müddətində Saatlı, Sabirabad və Goranboy rayonlarında icra etməyimizin səbəbi var. Sosial Xidmətlər Agentliyinin verdiyi sosial sifarişi Sabirabadda Günərzi qaygı mərkəzində həyata keçirən zaman həmin rayonda və Saatlıda erkən nikah statistikasının yüksək olduğunu müşahidə etmişdik. Ona görə də məhz o rayonlarda tədbirlər keçirməyi nəzərdə tutmuşuq. Eyni zamanda, gerçəkləşdirəcəyimiz layihələrdə valideynlərin də iştirakını zəruri hesab edirik. Çünki ötən tədbirlərdə qızlardan çox valideynlərin maarifləmməyə ehtiyacı olduğunu görmüşdük.

Qeyd edim ki, may ayından başlayaraq hər 3 rayonda erkən nikahlarla bağlı sorğu keçirmişik. 100 nəfərin iştirak etdiyi görüşlərdə sorğuları ikitərəfli apardıq. Erkən nikaha valideynlərin, eyni zamanda, qızların münasibətinin öyrənilməsini vacib bildik. Bununla bağlı fikirləri öyrəndikdən sonra analarin və qızların iştirakı ilə "dəyirmi masa"lar təşkil etdik. Yalnız bu yolla ailə ilə bağlı mövcud stereotipləri sındırmaq, maarifləndirmədə səmərəliliyə nail olmaq mümkündür.



Layihənin məqsəd və vəzifələrindən irəli gələrək valideynlər və yeniyetmələr arasında sorğu anonimlik qorunaraq aparıldı. Bu zaman uşaq evliliyi və erkən nikahın fəsadlarının cəmiyyəti daha çox narahat etdiyi qeyd edildi. Problemin qarşısının alınması üçün vətəndaş cəmiyyətinin apardığı maarifləndirmə işlərinin daha faydalı olduğu vurğulandı.

Biz izah etdik ki, ailə qurarkən tərəflərin düzgün seçim etməməsi, erkən nikaha qərar verilməsi bu cür ailələrdə narahatlıq doğuran fəsadların yaranmasına, körpələrin sağlamlığında ciddi problemlərin üzə çıxmasına səbəb olur. Bir çox hallarda həmin ailələr dağılır. Belə düşünülməmiş evliliklərdən ən çox ziyan çəkən isə dünyaya gələn uşaqlar olur. Ailə məsuliyyətini düzgün dərk etməyən, azyaşlı ikən dünyaya uşaq gətirən qızlar sonradan çox ciddi problemlərlə üzləşir və bunun öhdəsindən gəlməyə çox vaxt gücləri çatmır. Təhsildən ayrılan, heç bir peşə-sənətə malik olmayan, hüquqlarını bilməyən qadınlar üzləşdikləri çətinlikləri aradan qaldıra bilmirlər.

**Müsahibimiz hazırda erkən nikaha girən, eləcə də rəsmi nikahı olmayan, ailəsi dağılan çox sayda qadın olduğunu bildirdi:**

– Hətta həmin izdivacdan dünyaya gəlmiş övladlarına soyad ala bilməyən analar var. Heç bir sənətə sahib olmayan belə xanımlar sonradan maddi ehtiyaclarını təmin etməkdən məhrum olurlar. Bu da cəmiyyətdə sosial problemli insanların sayını artırır. Yetkinlik yaşına çatmayanların erkən evliliyi və qohum nikahlarla bağlı ölkədə mövcud olan ciddi problemlərin qarşısının alınması məqsədilə artıq Ailə, eləcə də Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun qəbul edilib. Bu bizim həyata keçirdiyimiz layihəyə birbaşa aid olduğuna görə, görüşlərdə bu məsələlərə yalnız maarifləndirmə yolu ilə yox, həm də qanunvericilik yolu ilə təsir edilə cəyini valideynlərə də, cəmiyyətə də izah etməliyik.

Layihə avqust ayında seminarların təşkili ilə davam etsə də, maarifləndirmə işləri sosial media və sosial şəbəkələr vasitəsilə respublika ərazisini əhatə edir. Hədəf qrupu hər bölgədən 70 nəfər olmaqla 14–17 yaş arasında gənc qızlar və onların valdeynləri iştirak edəcəklər. Azərbaycan qanunvericiliyinə görə 18 yaş həddində olan oğlan və qız arasında bağlanan rəsmi nikah yeni qurulan ailənin təməlidir.

Uşaqların Konstitusiya hüquqlarına görə, 18 yaşa qədər uşaq valideyn himayəsində olması şərt olduğundan, bu məsuliyyəti valideynlər daşıyır, məhz cavabdeh də onlardır. Elə bu səbəbdən də valideynlərin də hədəf qrupu kimi iştirakı təbiidir və onların daha çox maarifləməsinə ehtiyac var.

Qızların erkən nikaha məcbur edilməsi onların təhsildən kənarda qalmalarına səbəb olduğundan bu işdə məktəbin də məsuliyyəti var. Belə ki, əgər qızların dərsə davamiyyəti azalırsa və ya ümumiyyətlə, məktəbə getməkdən məhrum qalırlarsa, məktəb rəhbərliyi və ya müəllimlərin bununla bağlı məsuliyyətini danmaq olmaz. Onlar həmin məsələ haqqında icra nümayəndəliklərinə, yaxud icra hakimiyyətlərinə, eyni zamanda hüquq-mühafizə orqanlarına məlumat verməlidirlər.

Nailə İsmayılova sonda aparılan maarifləndirmə işlərinin təsirinin daha geniş ictimaiyyəti əhatə etməsi məqsədilə layihə çərçivəsində sosial çarx hazırlandığını bildirdi. O qeyd etdi ki, videomaterial adıçəkilən rayonlarda avqust ayında keçiriləcək seminarlarda iştirakçılara nümayiş etdiriləcək, eyni zamanda, sosial şəbəkə vasitəsilə cəmiyyətə təqdim olunacaq.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Türk dünyası: ortaq tarix, dil, ədəbiyyat

**Qırğızıstanın Çolpon-Ata şəhərində "Türk dünyası tarixinin öyrənilməsinin aktual problemləri: türk dünyasının dili və ədəbiyyatı" mövzusunda 1-ci elmi simpozium keçirilib.**



Qırğızıstandakı Toktomamatov adına Beynəlxalq Universitetin Amerika Birləşmiş Ştatlarının Ohayo ştatında fəaliyyət göstərən "Türk eli" beynəlxalq ictimai təşkilatı ilə birgə keçirdiyi elmi məclisdə Qırğızıstan, Qazaxıstan və Özbəkistandan 70-dən çox alim iştirak edib. Daşkənddə yaşayan tanınmış soydaşımız, rejissor Eldar Məmmədov da nümayəndələr arasında olub. O tədbirin gedişi ilə bağlı sənədli film də hazırlayıb.

Beynəlxalq Universitetin professoru Jenişbek Duyşeyev türk dünyasının inteqrasiyası, dil, din, adət-ənənələr, milli-mənəvi dəyərlərimizin daha da inkişaf etdirilməsi məsələlərindən danışıb.

"Türk elli"nin rəhbəri Sərvər İspaxi türk dünyasının ortaq dil, ortaq əlifba məsələlərindən, bu ideyanın reallaşdırılması istiqamətində görüləcək işlərdən söhbət açaraq deyib ki, türk xalqları dünya tarixinin, mədəniyyətinin və ədəbiyyatının inkişafında çox mühüm və əhəmiyyətli rol oynayıblar. Qədim türklər və indiki türk xalqları Çukotkadan Aralıq dənizinə qədər geniş bir əraziyə yayılıb.

Çıxış edən alimlər ümumi türk tarixinin, etnoqrafiyasının və mədəniyyətinin köklü surətdə öyrənilməsi məsələlərinə xüsusi diqqət verilməsi vacibliyindən danışıblar.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*

Bişkek

El aşıqları

# “Məmmədağa, başla dastan...”

**Həyatın axarı çox dəyişsə də, xalqımız musiqimizin zənginləşməsində böyük payı olan aşıq sənətini qoruyur və inkişaf etdirir. Bu gün də gözəl ifası ilə sevilən aşıqlarımız az deyil. Azərbaycan televiziyasının sazlı-sözlü verilişlərinə maraqla baxıram. Aşıqlarımızın ifa etdikləri saz havalarını, mahnıları, deyişmələri dinlədikcə xəyal məni uzaq illərə – unudulmaz uşaqlığa aparır. O çağlara ki, bizim üçün onda dünya daha işıqlı, ümidlərimiz daha bol, pərvaz idi...**



O illərdə kənd toylarının çoxunu aşıqlar aparardı. Toya aşıqla yanaşı, xanəndələr də gələrdi. Xalça və palazdan düzəldilmiş geniş toyxanada (mağarda), gündüzlər, adətən, oyun havaları çalınar, şıdırğı rəqslər bir-birini əvəz edərdi. Xanəndə çox zaman sifarişlə xalq və aşıq mahnılarını ifa edərdi.

Hər toyda el-obanın hörmət etdiyi, əhali arasında sözü keçən qoluna qırmızı dəsmal, lent bağlanmış şəxs aparıcılıq edir, sakitlik yaradardı. Şabaş yağışını yerdən toplamağa uşaqlar da kömək edərdilər. Gəlin oğlan evinin qapısında maşından düşəndə konfet, noğul səpilərdi. O anları fürsət bilən uşaqlar o şirniyyatdan ciblərini doldurar, sakitcə aradan çıxardılar...

Axşamlar isə meydan aşığa verilərdi. Aşıq, adətən, ya ötən axşamdan yarımçıq qalmış dastanın davamını, ya da çoxluğun istəyi ilə yenisini başlardı...

Hər toy məclisi bizim uşaq yaddaşımıza (elə böyüklərin də) yazılar, xatirəyə çevrilərdi. O vaxtlar kəndlərimizdəki toylara, adətən, Şirvan aşıq məktəbinin çox istedadlı nümayəndələri Şakir Hacıyev, Bəylər Qədirov, Məmmədağa Babayev, Əhməd Əhmədov, Barat Əhmədoğlu, Xanış Zaidov, Əzizxan Bəndəliyev və başqaları gələrdi.

**Mənim Vətənimə söylə tay hanı?!**
**Hüsnü məftun edib bütün dünyanı.**
**Məmmədağa, atıb eli-obanı,**
**Dünyadan yarımçıq köçsən günahdı!**

Yəqin ki, söhbətin kimdən gedəcəyini anladınız. Bəli, istəyirəm sizlərə indi az adamın xatırladığı, məşhur aşıq Məmmədağa Babayevdən söhbət açım.

Yuxarıda oxuduğunuz misralar neçə illərdi yaddaşımdadı. O misraları hər dəfə dilimə gətirəndə gözlərim önündə onun gülümsər çöhrəsi, səmimi, şux hərəkətləri canlanır. Elə bilirəm ki, geniş toy məclisindəyəm. Yenə çalıb-oxuyan, nağılı dastana calayan odur. Onun səsi saz havası ilə eyni ahəngdə çağlayır. Ürəkləri ovudan qoşa səs sanki illərin həsrətlilərini qovuşdurur, onların taleyinə yeni naxış vurur.

Arabir də öz qəlbindən qopan sözləri söyləyir:

**Məmmədağa çoşur yenə ilhamım,**
**Vətənimdir hər ümidim, hər kamım.**
**Mizrab vurub, qoy elləri dolanım,**
**Hələ neçə oymaqlarda gözüm var!**

Son misralar məni diksindirir. Bu vaxt toy məclisi qeybə çəkilir. Onu sonu görünməyən yol əvəz edir. O, bu yolun yolçusudur...

İllər əvvəl Məmmədağa Babayevin adı dillər əzbəri idi. Şirvanda çox toy məclisi onun iştirakı ilə keçərdi. Digər el şənliklərinin də fəal iştirakçısı idi. İfa etdiyi mahnıları, havaları radio və televiziyada tez-tez səsləndirərdilər. O, gözəl el aşığı olmaqla yanaşı, çox səmimi bir insan idi. Elə buna görə də onu tanıyanlar, ünsiyyətdə olanlar Aşıq Məmmədağaya heyran olurdular.

Universiteti bitirib, təyinatla Şamaxı rayon qəzetində işləyirdim. Əslində Şamaxıya, belə demək olarsa, öz istəyimlə getmişdim. Çünki Şamaxı haqda kitablarda oxuduqlarım, o torpaqda yetişən məşhur insanlar və təbii fəlakətlərin, neçə-neçə məşhur döyüşlərin qurbanına çevrilmiş bu daim narahat şəhər məni özünə çəkmişdi.

O illərdə Şamaxı yenidən böyüyür, gözəlləşirdi. Ədəbi mühit də qaynar idi. Azərbaycana səfər edən görkəmli qonaqların çoxu Şamaxıya, Pirqulu Astrofizika Rəsədxanasına gələrdi. Redaksiyamızın qonaqları isə çox vaxt sənət adamları olardılar.

Bir gün Aşıq Məmmədağa gəlmişdi. Əməkdaşların çoxu onunla söhbətdə iştirak edir, deyib-gülürdülər. Mən isə aşıqla tanış olmadığımdan, bir qədər aralıda dayanıb, sənətkarın hamı ilə necə ərkyana danışdığına fikir verirdim.

Arada aşıq mənə baxıb dedi:

– Qardaşoğlu, sən niyə uzaqda dayanmısan? Bağışla, səninlə tanış olmadım. Deyəsən, təzə işçisən?

Qısa tanışlıqdan sonra aşıq dedi:

– Sizin tərəflərin toylarında o qədər oxumuşam ki… Subaysan? İnşallah, əmin sənin toyunda bir oxusun ki. Əvəzində həyətinizdən bir yeşik nar yığacam. Sizin torpağın narı, heyvası can dərmanıdı...

Arabir rayonda keçirilən mədəni tədbirlərdə üz-üzə gəlirdik. Zarafatla soruşardı ki, toy haçandı? Nar yetişir, axı. Mən isə deyirdim ki, az qalıb, Məmmədağa əmi...

İki il sonra, payızda toyum oldu. Ancaq aşıq toyda iştirak eləmədi. Çünki qəfil xəstələnmişdi və onu Moskvaya aparmışdılar. Bir müddət sonra eşitdiyim qara xəbər məni sarsıtdı. Aşıq Məmmədağa Babayev 44 yaşında (1933-1977) dünyasını dəyişmişdi...

Hər dəfə Aşıq Məmmədağanın lent yazılarına qulaq asanda bu kiçik xatirə də yadıma düşür. Qəribə də olsa, hərdən mənə elə gəlir ki, aşıq həyətimizin narlarından yesəydi, bəlkə də şəfa tapacaqdı...

Təəssüf ki, yeni nəsil aşıq sənətinə az meyillidir və Aşıq Məmmədağa haqqında çox az məlumatlıdır. O, gənc yaşında sənətsevərlərin ürəyini ovsunlamışdı. İfa etdiyi “Döymə Kərəmi” dillər əzbəri idi. Həm də çoxlu şeirlər müəllifi idi. 1957-ci ildə Ümumdünya Gənclər Festifalının laureatı adını qazanmışdı. “İncə tellər” aşıqlar ansanblına rəhbərlik edirdi...

Amma ölüm ona tez qıydı. Sinəsi telli sazından, qəlbi doğma elindən vaxtsız ayrıldı. Belə olmasaydı, yəqin ki, o, sədəfli sazı sinəsinə basıb, böyük çöşqu ilə bu misraları oxuyacaqdı:

**Məmmədağa, başla dastan,**
**Üzümüzə gələn yazdan.**
**Sinən o sədəfli sazdan,**
**Qəlbin eldən ayrılmasın.**

Məmmədağa Babayev, həqiqətən, ustad aşıq və gözəl insan idi. Ruhu şad olsun!

*Səməd MƏLİKZADƏ*

# Milli mediamızın məlumat bazası hazırlanır



**Azərbaycan Mətbuat Şurasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə reallaşdırdığı “Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması” layihəsi çərçivəsində növbəti konfrans keçirilib. Toplantıda media və vətəndaş cəmiyyəti təmsilçiləri iştirak ediblər.**

Məclisi giriş sözü ilə açan Mətbuat Şurasının sədri Rəşad Məcid icra olunan layihənin mahiyyəti barədə məlumat verib və Şuranın təşəbbüsünü dəstəklədiyi üçün QHT Agentliyinə təşəkkürünü bildirib.

AMŞ Katibliyinin əməkdaşı İlqar Tağıyev toplantı iştirakçılarını Şuranın “Presscouncil.az” saytında yaradılmış “Azərbaycanın media landşaftı” kateqoriyasında həyata keçirilmiş son yeniliklər haqqında məlumatlandırıb. AMŞ İdarə Heyətinin üzvü, “Azərbaycan media landşaftı üzrə məlumat bazasının yaradılması” layihəsinin eksperti Müşfiq Ələsgərli layihə çərçivəsində aparılan tədqiqatlar barədə danışıb. O, məlumat bazasında yerləşdirilən bir çox mövzuların Azərbaycanda ilk dəfə tədqiqata cəlb edildiyini diqqətə çatdırıb.

ATV prezidentinin informasiya yayımı üzrə müşaviri Səadət Məmmədova, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli, “Olaylar” Media Qrupunun rəhbəri Yunus Oğuz, “Modern.az” xəbər portalının baş redaktoru Elşad Eyvazlı, CASCFEN sədri Nadir Azəri və digər konfrans iştirakçıları mövzu ilə bağlı fikirlərini çatdırıblar.

Müzakirələrdə vurğulanıb ki, Azərbaycan mediasının dinamik inkişafı onun mənzərəsini sürətlə dəyişir. “Azərbaycan media landşaftı üzrə məlumat bazası” həm mövcud durum, həm də yeniliklər barədə aydın təsəvvür formalaşdırır. Hazırlanan məlumat bazasında ölkəmizdə informasiya dövriyyəsini tənzimləyən qanunların mətni və internet keçid linkləri, etik standartları müəyyən edən milli və beynəlxalq sənədlərin mətni və keçid linkləri, fəaliyyətdə olan media subyektlərinin adları və keçid linkləri, həmçinin media məkanında gender balansının durumu barədə statistik göstəricilər və sair bu kimi məlumatlar toplanılır.

*Elşən AĞALAR*
*XQ*

# Həştərxanda “Xəzər mövsümləri”



**Azərbaycanın tanınmış incəsənət ustaları hər il müxtəlif sənət məclislərinə qatılır, sözügedən sahədə təcrübə mübadiləsi aparırlar. Bu dəfə də onların üz tutacağı beynəlxalq festival zəngin mədəni proqramı ilə maraq doğurur.**

“Xəzər mövsümləri” Beynəlxalq Klassik İncəsənət Festivalı adı altında təşkil olunacaq tədbirə Rusiyanın Həştərxan şəhəri evsahibliyi edəcək. Ölkəmizin də təmsil olunacağı tədbirdə Rusiya, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Belarus və İranının tanınmış sənət adamları qatılacaqlar.

Təmsilçilərimiz bu festival çərçivəsində 2 konsert proqramında iştirak edəcəklər. Bu barədə Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimli XQ-nin sorğusuna cavab olaraq bildirdi: “Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığa önəm verən ölkəmiz bu sferada əlaqələrin genişlənməsini daim diqqətdə saxlayır. Bir çox ölkələrin təşkil etdiyi festivallarda təmsil olunmağımız həmin məqsədə xidmət edən işlər sırasındadır. Belə festivalların təşkili ölkələrarası mədəni yaxınlaşmanı daha da sürətləndirir. Ənənəvi olaraq keçirilən bu festivalda hər dəfə ölkəmizin fərqli sənət adamları iştirak edirlər. Bu il Azərbaycan Dövlət Opera və Balet Teatrının Simfonik Orkestrinin üzvü olan 4 nəfər ifaçı Xəzəryanı Dövlətlərin Simfonik Orkestrinin tərkibində çıxış edəcək. Bundan başa, festival çərçivəsində Azərbaycan gününün təşkili nəzərdə tutulur. Burada da milli mahnılarımızdan ibarət konsert proqramı planlaşdırılır”.

Müsahibimizin dediklərinə əlavə olaraq bildiririk ki, “Mədəniyyət” milli layihəsi çərçivəsində gerçəkləşəcək festivalın rəsmi açılış mərasimi Həştərxan Kremlinin Kilsə meydanında nəzərdə tutulur. Proqrama uyğun olaraq əvvəlcə, avqustun 18-dən 20-dək Xəzəryanı dövlətlərin solistləri, musiqiçiləri və balet artistlərinin iştirakı ilə vokal, balet və orkestr üzrə ustad dərsləri keçiriləcək. Avqustun 18-də Qu gölünün sahilində Xəzəryanı dövlətlərin orkestrinin nəzdindəki “Brass” ansamblının üzvləri çıxış edəcəklər. Festivalın sonunadək açıq qalacaq diyarşünaslıq muzeyindəki “Rusiya - Xəzər dənizi” fotosərgisinin təşkili də proqramda əks olunub. Sərgi çərçivəsində festivalda iştirak edən etnik qrupların və solistlərin iştirakı ilə konsert proqramı qonaqlara əsl zövq yaşadacaq.

Ertəsi gün Həştərxan Filarmoniyasında vokal və orkestr akademiyasının üzvləri və Xəzəryanı Dövlətlərin Simfonik Orkestrinin gənc artistləri hesabat konserti verəcəklər. Klassik əsərlərin yaratdığı auradan zövq alacaq tamaşaçılar musiqi tarixinin məşhur nümunələrini dinləmək imkanı qazanacaqlar. Habelə gənclərin simfonik orkestri rəngarəng kompazisiyalarla avqustun 22-də Volqa sahilində qonaqların zövqünü oxşayacaq. Həmçinin avqustun 23-dən 28-dək isə Həştərxan Filarmoniyasında iştirakçı ölkələrin birgə solo konsertləri də gözlənilir.

Nəhayət, avqustun 30-da və 31-də Həştərxan Kremlinin Kilsə meydanında Həştərxan Opera və Balet Teatrının təqdimatında A.S.Darqomıjskinin “Rusalka” operasının premyerası olacaq. Sentyabrın 1-də isə “Xəzər fəsilləri”nin final mərhələsində reallaşacaq konsert zamanı Rusiyanın Xalq artisti, Bolşoy Teatrın və Milanın La Skala Teatrının prima balerinası Svetlana Zaxarovanın çıxışı nəzərdə tutulur.

Qeyd edək ki, avqustun 17-dən sentyabrın 1-dək təşkil olunacaq festival Həştərxan Vilayəti Hökumətinin dəstəyi ilə gerçəkləşəcək.

*C.ALIŞLI*
*XQ*

Xeyirxahlıq

# Tunelin sonunda işıq – “Ümidlə gəl”



**Nizami Kino Mərkəzində təşkil olunan “Ümidlə gəl” xeyriyyə layihəsinin növbəti təqdimatı bir qadının hekayəsindən bəhs edirdi.**

Məşhur sənət adamları və cəmiyyətin tanınmış nümayəndələrinin qatıldığı toplantıdan öncə qonaqlar mərkəzin foyesində təşkil edilmiş rəsm sərgisinə baxdılar. Sonra layihə çərçivəsində son illər həyata keçirilən xeyriyyə tədbirlərindən bəhs edən videoçarx nümayiş olundu.

**Layihə rəhbəri Hacı Quliyev görülən işlərin əhəmiyyətindən danışdı, xeyriyyə aksiyaları çərçivəsində atılan addımlar barədə bilgi verdi.**

O qeyd etdi ki, bir xanımın hekayəsi əsasında çəkiləcək “Tunelin sonunda işıq” adlı sənədli filmin mövzusu kədərli başlamağına baxmayaraq, sonu sevinclə bitir. Hazırkı mərasim ömrünün çox hissəsini məşəqqətlər içində sürən Yeganə adlı xanımın hekayəsindən bəhs edir. Onun gözünün ağı-qarası Alagöz adlı bir qızı var. Ana əvvəlcə öz həyat yoldaşını faciəvi şəkildə itirir. Bir müddət sonra Şəki şəhərindəki evləri zəlzələ nəticəsində qəzalı vəziyyətə düşür. Bu olaylardan sonra ailə Bakıya qazanc dalınca gəlir. İş elə gətirir ki, Alagöz xanım ikinci mərtəbədən yıxılır və qabırğası 8 yerdən qırılır. Həkimlər bildirirlər ki, əməliyyat olunmasa, ananın əziz övladı iflic olacaq.

Çıxılmaz vəziyyətdə qalan ana dənizdə intihar etmək barədə düşünür. Bu zaman qızı anasına zəng edərək, ağrılara dözə bilmədiyini söyləyir. O, fikrindən daşınır və qızına dərman alıb, geri dönür. Evə daxil olan ana bu zaman telekanalların birində psixoloji söhbət aparıldığını, xeyirxahlıqdan danışıldığını görür. Ekranda eşitdiyi bir ifadə onun həyatını xilas edir: "Hər hansı bir köməyə ehtiyacınız olarsa, mütləq bizə müraciət edin". Ailə həmin komandaya müraciət etdikdən sonra bütün ehtiyacları qarşılanır, qız sağalır, xoş günlərə qovuşurlar”.

Efirdə danışan bu adam tanınmış xeyriyyəçi, müxtəlif xeyriyyə layihələrinin müəllifi Hacı Quliyev idi. Bu gün Alagöz xanım Hacı Quliyevin mənəvi övladı hesab olunur. Bu hadisə haqqında film çəkilişləri də nəzərdə tutulur. Təqdimatda həmin həyat hekayəsindən bəhs edən fraqmentlər göstərildi.



“Tunelin sonunda işıq” sənədli filminin çəkilişlərinin başlanılması qarşıdakı günlərdə nəzərdə tutulur.

Mərasim musiqili-əyləncəli konsert proqramı ilə davam etdi.

*Ceyhun BALABƏY*
*XQ*

# Yaxın Şərq: nifrət və zorakılıqlar artır



**Yaxın Şərqdə od-alovun içində yaşamağa məhkum olan insanlar əzabəziyyət çəkirlər. Bəşər övladı bilmir ki, bölgədə tüğyan edən zorakılıqlardan özünü və doğmalarını necə qorusun. Raket və dronlar, artilleriya qurğuları isə susmaq bilmir. Bir yandan da terror aktları... Əsl, cəhənnəm səhnəsidir, deyilmi?**

...Teleekranlardan bu səhnələri izləyəndə adamın ürəyi ağrıyır. Münaqişə bölgələrindən canlı reportajlar hazırlayan jurnalistlər belə bir ifadəni tez-tez işlədirlər: "Burada adi, sadə, günahsız insanlar həyatlarından bezliblər. İnsanların yaşamaq haqqını kim təmin etməlidir? Beynəlxalq qurumlar, böyük dövlətlər, yoxsa yerli hökumətlər? Acı təəssüf ki, onların hər biri sülhdən ancaq sözdə danışır, əməldə, işdə hərə öz xeyrini güdür.

Həqiqətən, hazırda Yaxın Şərqdə ağır zorakılıqlar baş alıb gedir. Ən ağır və dözülməz vəziyyət isə Qəzzada yaranıb. Burada HƏMAS yaraqlıları ilə İsrail Ordusu arasında artıq 10 aydır davam edən ağır döyüşlərin sonu görünmür. Əziyyət çəkən isə yenə də fələstinli yoxsullar, necə deyərlər, fağır-füğəradır. Varlı ailələr çoxdan aradan çıxıblar.

Bəli, Qəzzada, demək olar ki, hər gün, hər saat qan tökülür. "Sinxua" agentliyinin müxbiri yazır ki, avqustun 9-da İsrailin Qəzza şəhərində məktəbə endirdiyi zərbələr nəticəsində azı 40 nəfər ölüb, onlarla insan yaralanıb. İsrail hökuməti bildirir ki, onun hərbçilərinin hədəfində yalnız HƏMAS terrorçularıdır. Amma ölən və yaralananların çoxu dinc, günahsız fələstinlilərdir. Acı reallıq budur!

İsrail təkcə HƏMAS yaraqlıları ilə mücadilə aparmır. Hədəfdə Livanın cənubunda yerləşən "Hizbullah" da var. Dünən yayılan məlumata görə, İsrailin Hərbi Hava Qüvvələri (HHQ) Livanda "Hizbullah"ın reaktiv yaylım atəşi sisteminə və digər hərbi obyektlərinə hücum edib.

Bu barədə İsrail ordusunun mətbuat xidməti məlumat yayıb. "Qırıcılar Livanın cənubundakı Hamaam bölgəsindəki obyektlərə zərbələr endiriblər", - deyə məlumatda bildirilir. Dağıntılar baş verib. Canlı itkilər barədə isə məlumat verilmir.

Bundan əlavə, İsrail HHQ Livanın cənubundakı Ayta əş-Şab, Mehabib, Markaba və Kfar Kila yaşayış məntəqələrindəki hədəflərə də hücum ediblər.

Həmçinin İsrail ərazisinə atılan mərmilərə cavab olaraq Livanın Mays əl-Cəbəl bölgəsinə də zərbələr endirilib.

Nüfuzlu "The New York Times" qəzeti regiondakı etibarlı mənbələrə istinadən məlumat yayıb ki, "Hizbullah" hərəkatı yaxın saatlar ərzində İranın gözlənilən zərbələrindən əvvəl İsrailə ilk hücumu təşkil edə bilər. Eyni zamanda, qəzet kəşfiyyat məlumatlarının "az olduğunu və teztez dəyişdiyini" qeyd edir. CNN daha əvvəl "Hizbullah"ın yaxın günlərdə hücuma keçə biləcəyini bildirmişdi.

Yeri gəlmişkən, dünən ABŞ-nin dövlət katibi Entoni Blinken İsrailin müdafiə naziri Yoav Qalantla telefonla danışıb. Birləşmiş Ştatların "baş diplomatı" telefon bağlantısı zamanı israilli naziri Qəzza zolağında təcili atəşkəsə nail olmağa çağırıb. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller bildirib. Miller həmçinin qeyd edib ki, Blinken Qalanta eskalasiyanın heç bir tərəfin maraqlarına cavab vermədiyini deyib.

Hər bir müharibə böyük xərclər deməkdir. Pulsuz-parasız savaş aparmaq mümkün deyil. Ağ evdə bunu yaxşı başa düşürlər. Təsadüfi deyil ki, tezliklə ABŞ hökuməti Yaxın Şərqdəki ən yaxın müttəfiqi olan İsrailə Amerikanın silah və hərbi texnikasını almaq üçün 3,5 milyard dollar verəcək və bu vəsaiti əvvəllər razılaşdırılmış əlavə hərbi yardım paketindən ayıracaq.

Bu barədə CNN telekanalı etibarlı mənbələrə istinadən xəbər verib. Xatırladaq ki, 2024-cü ilin aprelində ABŞ Konqresi İsrailə 20 milyard dollardan çox əlavə hərbi yardımın ayrılmasına səs verib. Bu qəbildən olan xəbərlər müsəlman ölkələrində bir qayda olaraq narazılıqla qarşılanır.

Bir neçə gündür ki, siyasi şərhçilər İranın HƏMAS-ın siyasi lideri İsmayıl Haniyənin Tehranda öldürülməsinə necə və hansı miqyasda cavab verəcəyi ilə bağlı ehtimallar səsləndirirlər. Hər ağızdan bir avaz gəlir. Hələlik rəsmi Tehran konkret addımlar atmağa, qarşı tərəfi "cəzalandırmağa" tələsmir. Görünür, bunun bədəlinin ağır olacağını düşünür.

Bu arada İranın BMT-dəki daimi nümayəndəliyi jurnalistlər üçün rəsmi açıqlama yayımlayıb. Orada deyilir ki, İsmayıl Haniyənin Tehranda qətlə yetirilməsinə cavab vaxtında veriləcək və bu, Qəzza zolağında atəşkəslə bağlı danışıqlara təsir etməyəcək. Məlumatda həmçinin vurğulanır ki, İranın prioriteti Qəzzada daimi atəşkəsin əldə olunmasıdır və HƏMAS-ın qəbul etdiyi istənilən razılaşma İran tərəfindən tanınacaq. Hiss olunur ki, Tehran birbaşa münaqişəyə cəlb olunmaq niyyətində deyil. Başqa səbəblər də ola bilər.

Yaxın Şərqin ən güclü dövlətlərindən olan Türkiyə regionda eskalasiyanın güclənməsindən narahatdır. Qardaş ölkənin xarici işlər naziri Hakan Fidan Montenegrodan olan həmkarı Ervin İbrahimoviç ilə birlikdə keçirdiyi mətbuat konfransında bildirib ki, Ankara İsrail-Fələstin gərginliyinin ikidövlətli həlli yolu üçün çalışır: "Biz əlaqələrimizin olduğu bütün regionlarda hər cür toqquşmaların diplomatiya yolu ilə həllinin tərəfdarıyıq".

Bəli, Türkiyə regionda sülh və sabitlik istəyir və bunun üçün müdrik addımlar atır. Ankara hesab edir ki, hər bir ölkənin, toplumun sülh və əmin-amanlıq şəraitində yaşamaq, yaratmaq haqqı var.

Türkiyənin prinsipial və ədalətli mövqeyi təkcə bölgə deyil, bütövlükdə, dünya ictimaiyyəti tərəfindən müsbət qarşılanır, amma Ankaranın regionda güclü aktora çevrilməsinə mane olmaq istəyənlər az deyil. Gec-tez ilahi ədalət öz yerini tutacaq!

***Məsaim ABDULLAYEV***
***XQ***

**Rusiyanın Kursk bölgəsinə qəfil hücum edən Ukrayna silahlı qüvvələri bir neçə gün ərzində rusların bir neçə ayda tutduqlarından daha çox ərazi ələ keçirməsi bütün dünyanı şoka salıb. "Vaşinqton Post" qəzetinin yazdığına görə, Ukraynanın ötənilki cənuba hücumu Rusiyanın yaxşı hazırlanmış müdafiəsi sayəsində uğursuzluğa düçar olub. Ancaq indi ukraynalılar Kursk bölgəsinə rahat şəkildə daxil olublar, çünki ruslar hücum gözləmirdilər. ABŞ qəzeti iddia edir ki, Rusiyanın daxili əraziləri zəif müdafiə olunur və rus ordusu yeni təhdidlərə çevik reaksiya verə bilmir.**

Ukrayna qüvvələrinin gələcək danışıqlarda təsir rıçaqları əldə etmək ümidi ilə Rusiya ərazisini saxlamağa çalışıb-çalışmayacağı, yoxsa Rusiya böyük əks-hücum əməliyyatına başlamazdan əvvəl onların ərazilərinə geri çəkilib-çəkilməyəcəyi məlum deyil. "Vaşinqton Post" yazır ki, bu sualın cavabı Vaşinqtonun mövqeyindən asılı olacaq. Məqalədə deyilir ki, Co Bayden administrasiyası bu hücumda Amerika texnikasının istifadəsindən etiraz etməsə də, hələ də Ukraynaya Rusiya aerodromlarına və Rusiyanın dərinliklərindəki digər

NATO eksperti Stefani Babst hesab edir ki, Ukrayna silahlı qüvvələrinin Kursk bölgəsində hərəkətləri yaxşı planlaşdırılıb və Ukrayna rus ordusunu təəccübləndirib. "Bild"ə verdiyi şərhdə o, Kursk əməliyyatının beş mümkün hədəfini sadalayıb. S.Babst düşünür ki, Kurska hücum etməklə Kiyev Moskvaya təzyiq etmək istəyir: "Berlin və Vaşinqtondan fərqli olaraq, Ukrayna silahlı qüvvələri rusları bacardıqları qədər müdafiə mövqeyinə qoymalı olduqlarını başa düşdülər".

Hərbi ekspert ikinci hədəf kimi Ukray-

# Kursk əməliyyatının hədəfləri



hədəflərə zərbələr endirmək üçün Amerika ATACMS raketlərindən istifadə etməyə icazə verməyib.

Qəzet yazır: "Ola bilsin ki, Ukraynanın bu yaxınlarda aldığı F-16-ların hücumları ilə dəstəklənən bu cür zərbələr Rusiyanın istənilən əks-hücumunun qarşısını ala bilər. Əgər Ukraynaya Vaşinqtondan icazə verilməsə, onun qoşunları lazım olandan tez geri çəkilməyə məcbur olacaq". Nəşr qeyd edir ki, Rusiya canlı qüvvə baxımından hələ də böyük üstünlüyə malikdir və buna görə də Kreml Ukraynanın şərqindəki bölmələrini tükətmədən Rusiyadan Kur-

nanın Qərbə döyüş qabiliyyətini nümayiş etdirmək istəməsini göstərir. Ekspertin fikrincə, Ukrayna silahlı qüvvələri bu hücumu ilə Rusiya qoşunlarına göstərmək istəyirlər ki, onlara təzyiq edə bilərlər. Stefani Babst düşünür ki, uzunmüddətli perspektivdə bu, müttəfiqləri "Qərb silah sistemlərinin istifadəsinə dair dağıdıcı məhdudiyyətlərdən imtina etməyə" inandırmağa kömək edəcək.

Üçüncü hədəf rus qoşunlarının cəbhənin digər sektorlarına təzyiqini azaltmaqdan ibarətdir. Donbass və Xarkovda Ukrayna silahlı qüvvələri Rusiyanın hücu-



ska ehtiyat göndərə bilər. Əksinə, Ukrayna qüvvələri ruslarla müqayisədə daha təchiz olunub ki, Donetsk bölgəsindəki döyüş ərazisindən qoşunları Kursk bölgəsinə köçürsə, ciddi risk altına düşə bilər. Eyni zamanda, "Vaşinqton Post" iddia edir ki, rus qoşunları digər istiqamətlərdə olduğu kimi eyni sürətlə irəliləsə, Kursk vilayətində itirilmiş əraziləri geri almaq üçün bir il vaxt lazım olacaq.

"Forbes" jurnalı isə yazır ki, Ukrayna artıq Kursk vilayətinə beş briqada göndərib. Onlar Kursk vilayətinin təxminən 500 kvadrat metr ərazisini ələ keçirib və onlarla rus əsgərini əsir götürüblər. Ukraynanın hücumlarını ləngitməsindən əsər-əlamət yoxdur. Bəzi informasiyalara görə, Ukrayna ordusunun Kursk vilayətinin Plexovo kəndinə daxil olub. Eyni zamanda, Belqorod vilayətinin Poroz kəndinin tutulması haqqında da məlumat var. Ukrayna rəsmiləri indiyədək bu hadisələri şərh etməkdən çəkiniblər. Bununla belə, Prezident Aparatının müşaviri Mixail Podolyak cümə axşamı bildirib ki, belə bir əməliyyat Moskva ilə gələcək danışıqlarda Kiyevin mövqeyini yaxşılaşdıracaq.

munu dayandırmaqda çətinlik çəkir. İndi ruslar Kursk bölgəsində ukraynalıları dayandırmaq üçün qüvvələrinin bir hissəsini təcili olaraq həmin əraziyə köçürməlidirlər.

NATO eksperti dördüncü hədəfin Kursk atom elektrik stansiyasının ələ keçirilməsindən və sonra onu Rusiya tərəfindən ələ keçirilən Zaporojye atom elektrik stansiyası ilə dəyişdirilməsindən ibarət olduğunu düşünür. Bir neçə gündür ki, bununla bağlı spekulyasiyalar gedir. Bununla belə, S.Babst Ukrayna silahlı qüvvələrinin belə bir vəzifə ilə üzləşdiyinə şübhə edir, çünki "hərbi baxımdan bu, çox uzun və çətin bir yol olardı".

Nəhayət, beşinci hədəf Rusiyanın qaz ixracatını nəzarət altına almaqdır. Onun fikrincə, Ukrayna silahlı qüvvələri daha çox qaz ixracının həyata keçirildiyi Sudjadakı qaz ölçmə stansiyasına nəzarət etməyə çalışır. Stansiya Avropa və Rusiyanı birləşdirən ən son qaz kəmərinin əsas elementidir: "Bu, Rusiyanın qaz biznesi üçün əhəmiyyətli itki olardı".

***S.ELAY***
***XQ***

# Gürcüstan parlament seçkilərinə hazırlaşır

**Gürcüstanda parlament seçkiləri yaxınlaşdıqca partiyalar arasında mübarizə də kəskinləşir. Seçkilər oktyabrın 26-da 5 faizlik baryerlə proporsional qaydada keçiriləcək. Rəsmi seçki kampaniyası isə avqustun sonunda başlayacaq.**



Son sorğulara görə, ən pis halda 2, ən yaxşı halda isə 5 partiyanın parlamentə düşmək şansı var. Ehtimal olunur ki, "Gürcü Arzusu" böyük fərqlə liderliyini qoruyub saxlayacaq, "Vahid Milli Hərəkat" isə ikinci yerdə qərarlaşacaq.

Parlament seçkiləri qarşıdakı 4 il ərzində hansı partiyanın hökuməti qurmaq və ölkəni idarə etmək hüququna malik olacağını müəyyənləşdirəcək. Hazırda seçkiqabağı proses qanun pozuntuları ilə gedir. Bu barədə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili deyib: "Təəssüf ki, seçki prosesi qanun pozuntuları fonunda baş verir, o cümlədən seçki prosesinə xarici müdaxilələr də özünü büruzə verir".

Onun sözlərinə görə, seçkiqabağı prosesdə neytrallıq prinsipinin pozulur. Belə ki, "Beynəlxalq Şəffaflıq-Gürcüstan" QHT-nin təşkil etdiyi görüşlərdə hakim partiyaya qarşı fəal təbliğat aparılıb".

Parlamentin sədri ATƏT/ DTİHB (ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu) missiyasının baş verənlərə müvafiq qiymət verəcəyinə ümid etdiyini bildirib: "Ümid edirəm ki, hazırda prosesləri uzaqdan izləyən ATƏT/DTİHB missiyası, eləcə də digər beynəlxalq müşahidə missiyaları bunu öz hesabatlarında əks etdirəcəklər".

"Xalqın Gücü" partiyasının deputatı Quram Maçaraşvili isə deyib ki, parlament seçkiləri ərəfəsində hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" və "Xalqın Gücü" partiyaları müxalifətlə deyil, xarici qüvvələrlə rəqabət aparır.

Xatırladaq ki, hakim "Gürcü Arzusu" və "Xalq Gücü" partiyalarının liderləri ən böyük müxalifət partiyalarını və onların tərəfdaşlarını "radikal müxalifət", "müharibə partiyası" və xarici qüvvələrin agentləri adlandırırlar.

Maçaraşvili daha sonra bildirib: "Seçkiqabağı dövrdə biz faktiki olaraq xarici qüvvə ilə rəqabət aparırıq, çünki müxalifət bizimlə rəqabət apara bilmir, müxalifətin bizimlə rəqabət apardığı gündəmə və məsələlərə baxın, hamı bizim narrativlərə üz tutub".

Gürcüstanda seçki məntəqələrinin 90 faizində elektron səsvermə sistemindən istifadə ediləcək. Seçicilər seçki məntəqələrində əvvəlki qaydada səs verələr də, yeni bülletenlərdən istifadə olunacaq və nəticələr xüsusi sayma maşını ilə hesablanacaq. Əvvəllər elektron səsvermə sistemi seçki məntəqələrinin yalnız kiçik bir hissəsini əhatə edirdi və pilot rejimdə həyata keçirilirdi.

Bu il həm də parlament seçkiləri ilk dəfə Gürcüstanda tam proporsional sistemlə keçiriləcək. Parlamentdəki 150 yerin sahibləri partiya siyahıları əsasında müəyyən olunacaq. Bununla belə hər bir partiya yalnız ən azı 5 faiz səs toplayacağı təqdirdə parlamentə daxil ola biləcək.

***PÜNHAN***
***XQ***


## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

### "Ələt" adlı gəminin əsaslı təmiri xidmətinin satın alınması üçün

### MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 5 sentyabr 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– +994 12 599 00 03 (daxili 3706).

Ünvan– AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 170 (30574) 11 avqust 2024-cü il, bazar

# Tokioda – bürünc, Parisdə – gümüş

## *Boksçularımız Olimpiadanı 1 medalla başa vurdu*



**Azərbaycan Olimpiya komandasının 5-ci medalı boksdan gəldi. Millimizin üzvü Alfonso Dominqes rinqə qızıl medal üçün çıxsa da, təəssüf ki, özbəkistanlı rəqibi ondan güclü oldu. Təmsilçimiz mötəbər yarışın gümüş medalı ilə kifayətləndi. “Tokio-2020”dəki bürüncünü “Paris-2024”də daha da yaxşılaşdıran rinq ustası Azərbaycanın olimpiadalar tarixində 9-cu ikiqat mükafatçısı olub. Ona qədər müxtəlif növlərdə 8 idmançımız ən azı iki olimpiya medalı qazanıb.**

Bununla da, boks komandamız yarışı 1 gümüş medalla başa vurdu. Gümüş medal özlüyündə pis nəticə olmasa da, gözləntilər daha böyük idi. Budəfəki olimpiadada 5 boksçu ilə təmsil olunduq. Olimpiadadakı nəticələrə görə Azərbaycan millisi lisenziya sayında dünyanın yalnız üç ölkəsindən (Özbəkistan, Qazaxıstan, Avstraliya) geri qalsa da, nəticədə Meksika ilə 10-cu pilləni bölüşür. Potensial cəhətdən də idmançılarımızın forması yaxşı qiymətləndirilirdi.

Gümüş medalçımıza gəldikdə, Alfonso Dominqesin özü də qazandığı medalın əyarından razı olmadığını bildirib:

–Final qarşılaşmasından əvvəl rəqibimiz analiz etmiş, öz taktikamı qurmuşdum. Amma nədənsə, qarşılaşma istədiyim kimi alınmadı. Görünür, rəqib döyüşə daha yaxşı köklənmişdi.

Boksçumuz olimpiadadan medalsız qayıtmadığına görə Tanrıya dua etdiyini deyib:

–Gümüş medal qazanmaqla tarix yazdım. Amma medalın əyarından razı deyiləm. Söz verirəm ki, növbəti olimpiadada qızıl medal qazanacağam. Hamı qalib gəlmək istəyir. Məğlubiyyətə baxmayaraq, Tanrıya dua edirəm ki, məni medalsız qoymadı.

Mübarizəyə 1/8 finaldan başlayan Alfonso Dominqes ilk görüşündə kubalı Xulio Sezar La Krusa, ardınca qazaxıstanlı Aybek Oralbaya qalib gəlib. İdmançımız yarımfinalda İspaniya təmsilçisi Reyes Planı da məğlub edib. Finalda özbəkistanlı Lazizbek Mullojonova uduzan boksçumuz gümüş medalla kifayətlənib.

# Olimpiya komandamızdan 6-cı medal

## *Güləşçimiz olimpiadada bürünc mükafat qazanıb*

**Azərbaycan Olimpiya komandası Paris Yay Olimpiya Oyunlarında böyük uğura imza ataraq daha 1 medal qazanıb. Bürünc mükafatı yığmamızın aktivinə sərbəst güləşçi Giorgi Meşvildişvili (125 kq) yazdırıb. İdmançımız 3-cü yer uğrunda Robert Baranla (Polşa) mübarizə aparıb. Rəqibinə 9:3 hesabla qalib gələn pəhləvanımız 3-cü yeri tutub.**



Dünən Paris Yay Olimpiya Oyunlarında Azərbaycanın daha 2 sərbəst güləşçisi mübarizəyə qoşulub.

Təmsilçimiz Hacı Əliyev (65 kq) yarışa 1/8 finaldan başlayıb. Olimpiadaların gümüş və bürünc mükafatçısının ilk rəqibi meksikalı Ostin Qomes olub. Görüş idmançımızın qələbəsi ilə başa çatıb - 7:0. Əliyev 1/4 finalda İsmail Musukayevlə münasibətinə aydınlıq gətirib. Lakin qarşılaşmada rəqib 10:3 hesabı ilə qalib gəlib.

Maqomedxan Maqomedov (97 kq) da 1/4 finala vəsiqə üçün mübarizə aparıb. Dominikan Respublikası idmançısı Luis Migel Pereslə üz-üzə gələn güləşçimiz rəqibinə heç bir şans verməyib və 9:0 hesabı ilə qələbə qazanıb. Maqomedov ikinci qarşılaşmasında Zbiqnev Baranovski (Polşa) ilə qüvvəsini sınayıb. O, bu dueldən də üstün ayrılıb. Rəqibini 7:2 hesabı ilə məğlub edən Maqomedxan yarımfinala yüksəlib. Finala gedən idmançımız gürcüstanlı Givi Matçaraşviliyə 0:5 hesabı ilə məğlub olub. Maqomedov bu gün bürünc medal uğrunda güləşəcək.

Qeyd edək ki, indiyədək Azərbaycan komandası 2-si qızıl olmaqla, 5 medal qazanıb. Cüdoçular Hidayət Heydərov (73 kq) və Zelim Kotsoyev (100 kq) Olimpiya çempionu olublar, taekvondoçu Qaşım Maqomedov (58 kq) və boksçu Alfonso Dominqes (92 kq) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kq) isə bürünc medala sahib çıxıblar.

# Yeməklər– keyfiyyətsiz, otaqlar – narahat
# Almaniya Olimpiya kəndindən narazıdır



**Almaniyalı tennisçi Aleksandr Zverev Parisdəki Olimpiya kəndinin ən yaxşı şəkildə təşkil olunmadığını deyib və yaşayış şəraitini tənqid edib. Onun sözlərini RMC Sport nəşri sitat gətirir.**

“Qidalanma, pis yuxu şəraiti ilə bağlı problemlər var idi. Otaqlarda kondisioner də yox idi, bu mənim üçün bir az çətin idi, amma hamı üçün eyni idi, ona görə də şikayət etmirəm”, - Zverev bildirib.

O, həmçinin əlavə edib ki, koronavirus pandemiyası səbəbindən 2021-ci ilin yayında keçirilən 2020 Oyunları zamanı Tokioda Olimpiya kəndi daha yaxşı təşkil edilmişdi.

Paris Olimpiadası zamanı bir çox məqamlar tənqid olunur. Məsələn, Britaniya nümayəndə heyətinin idmançıları Olimpiya kəndində idmançılara verilən yeməklərdən narahatlıqlarını və narazılıqlarını bildiriblər. ABŞ-dan olan idmançılar da yeməkdən narazılıqlarını bildiriblər. Məsələn, qidanın keyfiyyəti idman gimnastikası üzrə yeddiqat olimpiya çempionu Simone Biles tərəfindən tənqid edilib.

Hava

# Abşeronda külək, bölgələrdə yağış, duman və yel



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 20-24°, gündüz 30-34° isti olacaq.**

Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 31-36°, dağlarda gecə 10-15°, gündüz 16-21° isti olacaq.

# Sena alman üzgüçünü zəhərləyib

**Alman üzgüçü Leoni Bek Olimpiada çərçivəsində baş tutan 10 kilometr üzgüçülük yarışından sonra sosial şəbəkələrdə Senadakı suyun keyfiyyətini tənqid edib.**



“9 dəfə qusdum + ishal. Senadakı suyun keyfiyyəti təsdiqlənib”, – Bek yazıb.

Bundan əvvəl ilk ikiqat Olimpiya çempionu, hollandiyalı üzgüçü Şaron van Rauvendaal Sena boyu üzərkən çay suyu içdiyini etiraf etmişdi.

Avqustun 5-də məlum olub ki, iki isveçrəli idmançı Adrien Briffault və Simon Vestermann qarışıq triatlon estafetindən geri çəkiliblər. A.Briffault mədəsində problem olduğu üçün növbəti yarışda iştirakdan imtina etmək məcburiyyətində qalıb. Bildirilib ki, idmançı Senadan su içib və bu, çox güman ki, infeksiyaya səbəb olub. S.Vestermann Briffonu əvəz etməli olsa da, o da bağırsaq infeksiyası səbəbindən estafetdən də çəkilib.

# ALLAH RƏHMƏT ELƏSİN

Telman Heydərov keçmiş iş yoldaşı, tanınmış ədəbiyyatşünas-publisist

**İLHAM ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Respublika Pediatriya Mərkəzi Publik Hüquqi Şəxsin direktoru Azər Əhmədov və mərkəzin kollektivi Nərimanov Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasının şöbə müdiri Gülarə Rzayevaya oğlu

**OKTAY QASIMBƏYOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər

# Bədii gimnastlarımız 5-ci yeri tutublar



**Paris Olimpiadasının bədii gimnastika yarışlarında qrup hərəkətləri üzrə komandalar final mərhələsində mübarizə aparıblar. Bu mötəbər yarışda Azərbaycan yığması da medallar üçün mübarizə aparıb.**

Mükafatlar uğrunda 8 komanda gücünü sınayıb. Zeynəb Hümmətova, Darya Sorokina, Ləman Əlimuradova, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət kollektiv 3 lent və 2 topla hərəkətlərdə 31.600 xal toplayıb.

Daha əvvəl 5 halqa proqramında hakimlərdən 34.850 xal alan yığma iki hərəkətin cəmində 66.450 xalla 5-ci pilləni tutub.

# Parisdə yenə bayraq qalmaqalı

**Təşkilatçılığına görə, idman tarixinə ən bərbad Olimpiada kimi düşən “Paris-2024”də növbəti biabırçılıq yaşanıb.**



Qalmaqal 92 kiloqram çəkidə idmançıların – gümüş medal qazanan Azərbaycan boksçusu Alfonso Dominqesin, qızıl medalın sahibi özbəkistanlı Lazizbek Mullojonovun, bürünc medalçılar ispaniyalı Emmanuel Reyes Pla və tacikistanlı Davlat Boltayevin mükafatlandırılması zamanı baş verib. Təşkilatçılar bürünc medalın sahibinin şərəfinə qaldırılmalı olan Tacikistanın bayrağı əvəzinə Tailandın bayrağını qaldırıblar.

Qeyd edək ki, Alfonso Azərbaycan boks tarixində ikinci gümüş medalın sahibi olub.

# Çinin ilk 6 qat Olimpiya çempionu



**Çinin stolüstü tennisçisi Ma Lun Paris Olimpiadasında növbəti qızıl medalını əldə etməklə rekorda imza atıb.**

İstedadlı idmançı 6 qat Olimpiya çempionu titulunu qazanan ilk çinli olub. Ma Lun 2 dəfə şəxsi, 4 dəfə isə komanda yarışlarında Olimpiya çempionu tituluna yiyələnib.

Qeyd edək ki, Çin yığması olimpiadanın komanda yarışlarında ardıcıl 5-ci dəfə birinci yeri tutub.

*Səhifəni hazırladılar:*
*Səbuhi MƏMMƏDOV,*
*Leyla QURBANOVA,*
*Qəzənfər QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3550
SİFARİŞ 1767
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00